HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 10 (750) ■ 11 mart 2015 www.vergiler.az Qiyməti: 40 qəp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

## 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik

**Hörmətli xanımlar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və yüksək amallar naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz Azərbaycan qadınlarının müasir cəmiyyətimizdə tutduğunuz mövqe, bərabər hüquqlar və imkanlar üçün göstərdiyiniz səylər, həmçinin mötəbər qurumlarda təmsil olunmağınız fəxr etdiyimiz mühüm tarixi nailiyyətlərdir. Adınız ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi ölkəmizdə həmişə uca tutulmuşdur. Qədim keçmişimizin hər bir səhifəsi müdrikliyinizin, fədakarlıq və qəhrəmanlığınızın parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik mədəni-mənəvi dəyərlərin, doğma ana dilinin və adət-ənənələrin bu günlərədək layiqincə yaşadılması sizin misilsiz xidmətinizdir.

Mədəniyyət salnaməmizə, ədəbi-ictimai və elmi fikir tariximizə öz istedadı və zəkasıyla yeni səhifələr yazmış maarifpərvər Azərbaycan xanımlarının yolunu siz bu gün də şərəflə davam etdirirsiniz. Nəsillərin varisliyini qoruyaraq ötən əsr boyunca sosial-mədəni fəaliyyətin genişləndirilməsi istiqamətindəki müvəffəqiyyətlərinizi müasir mərhələdə vətəndaş cəmiyyətinin təşəkkülü və əsaslarının möhkəmləndirilməsi prosesində yaxından iştirakınızla daha da zənginləşdirmisiniz. Məmnunluq hissi ilə bildirirəm ki, müstəqilliyimizin bərpasından sonrakı müddət ərzində milli dövlət quruculuğu sahəsində qazanılan uğurlarda müstəsna rolunuz vardır.

Azərbaycançılıq məfkurəsinə, milli dövlətçilik ideallarına sədaqət, vətənə məhəbbət ruhunda formalaşmış gənclik ölkəmizə ən böyük töhfənizdir. İnanıram ki, istedad və bacarığınızı ictimai-siyasi, sosial-iqtisadi və intellektual-mənəvi həyatımızda bundan sonra da gerçəkləşdirərək, Azərbaycanın davamlı inkişafı naminə var qüvvənizlə çalışacaqsınız.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 5 mart 2015-ci il.

# Azərbaycan – Bolqarıstan əlaqələri uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Bolqarıstan Respublikasına rəsmi səfərə gəlib. Prezident İlham Əliyevi Bolqarıstan Prezidenti Rosen Plevneliyev qarşılayıb.

Dövlətimizin başçısı Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət edib. Sonra Prezidentlər - İlham Əliyev və Rosen Plevneliyevin təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, humanitar, mədəni və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə geniş tərkibdə görüşü olub. R.Plevneliyev ölkələrimiz arasında əsrlər boyu mövcud olan dostluğun davam etdiyini, Azərbaycanın Bolqarıstan üçün çox yaxşı, etibarlı dost və tərəfdaş olduğunu, strateji tərəfdaşlıq çərçivəsində bütün sahələrdə əməkdaşlıq üçün yeni üfüqlər açdığını diqqətə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanla ölkəmiz arasında dostluq və strateji tərəfdaşlığın gücləndiyini qeyd edib. Görüşdə Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu qeyd edilib. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, investisiya qoyuluşu, energetika, TAP və TANAP strateji layihələri, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, ərzaq məhsulları, turizm, infrastruktur və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev «Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə»ni imzalayıblar.

Həmin gün dövlətimizin başçısı Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə də görüşüb. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Azərbaycan Prezidentinin Bolqarıstana rəsmi səfərinin iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivlərinin müzakirə edilməsi üçün önəmli olduğu vurğulanıb.

Azərbaycan-Bolqarıstan arasında sənədlərin imzalanma mərasimindən sonra Prezident İlham Əliyevin və Baş nazir Boyko Borisovun birgə mətbuat konfransı olub. Dövlətimizin başçısı bildirib ki, Bolqarıstan-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir: «Siyasi əlaqələrin güclü olması, əlbəttə ki, bütün başqa sahələrə də müsbət təsir göstərir. Biz, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik».

Azərbaycan Prezidenti regionda mühüm əhəmiyyətə malik nəqliyyat layihələri və «Cənub» qaz dəhlizi haqqında da danışıb: «Bu layihə bir neçə komponentdən ibarətdir. İlk növbədə, «Şahdəniz» qaz yatağının işlənilməsi, Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəmərinin genişləndirilməsi, Trans-Anadolu-TANAP layihəsinin icra edilməsi və Trans-Adriatik-TAP layihəsinin tikintisi «Cənub» qaz dəhlizini formalaşdıran seqmentlərdir. Bütün istiqamətlər üzrə ardıcıl iş aparılır. Keçən ilin sentyabr ayında Bakıda «Cənub» qaz dəhlizinin təməli qoyulmuşdur. Bu ilin fevralında isə Bolqarıstanın energetika nazirinin iştirakı ilə Bakıda «Cənub» qaz dəhlizi ölkələrini təmsil edən nazirlərin birgə Məşvərət Şurası keçirilmişdir. Azərbaycanın qaz ehtiyatları həm Azərbaycan xalqının rifahına, eyni zamanda, Avropa istehlakçılarının enerji təhlükəsizliyinə xidmət göstərir. Bu gün Avropa İttifaqı sənədlərində Azərbaycan çox etibarlı və strateji tərəfdaş kimi qiymətləndirilir. Azərbaycan qazı Avropaya yaxın zamanlarda nəql edilə biləcək yeganə yeni qaz mənbəyidir».

Baş nazir Boyko Borisov mətbuata bəyanatla çıxışında bildirib ki, ölkələrimiz arasında siyasi-iqtisadi, humanitar sahələrdə əməkdaşlığı artırmaq üçün güclü potensial vardır: «Digər sahələrdə - idman, mədəniyyət və kənd təsərrüfatı sahələrində sərmayə üçün böyük imkanlar və potensial var. Bundan əlavə, biz əczaçılıq məhsullarının təchizatı məsələsini də müzakirə etdik. Bizim səhiyyə nazirimiz artıq bu gün böyük əczaçılıq şirkətlərinin nümayəndələri ilə görüşərək Azərbaycanda istehsal sahələrinin yaradılması məsələlərini nəzərdən keçirəcək. Bizim tikinti şirkətlərimiz də Azərbaycanda bir sıra layihələrdə iştirak edə bilərlər. Beləliklə, çox geniş imkanlar vardır ki, biz dost Azərbaycan ilə bir sıra sahələri inkişaf etdirək».

# Prezident İlham Əliyevin Vatikana rəsmi səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfərə gəlib. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Vatikanda Katolik Kilsəsinin rəhbəri Papa Fransisk ilə görüşüblər.*



Görüşdə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə edilib, münasibətlərimizin yaxşı perspektivlərinin olduğu vurğulanıb, Vatikanın Azərbaycan ilə əlaqələrə yüksək qiymət və mühüm əhəmiyyət verdiyi bildirilib. Söhbət zamanı mədəniyyətlərarası və dinlərarası münasibətlərə Azərbaycanın verdiyi önəmin dövlətlərimiz arasında ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığı diqqətə çatdırılıb, ölkəmizdə nümunəvi tolerantlıq mühitinin olduğu, bütün dini konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı vurğulanıb.

Görüşdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illərdə Vatikanda həyata keçirdiyi müxtəlif mədəni layihələrin əhəmiyyəti xüsusilə deyd edilib.

Vatikana rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə geniş tərkibdə görüşü olub. Görüşdə Azərbaycan ilə Vatikan arasında ikitərəfli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Azərbaycanda bütün dinlərə münasibətin yüksək səviyyədə olduğu, müxtəlif dini icmalar arasında qarşılıqlı anlaşma və etimad mühitinin hökm sürdüyü bildirilib. Ölkəmizdə multikulturalizmin yaxşı ənənələrinin mövcudluğu, bu sahənin inkişafına xüsusi diqqət göstərildiyi, respublikamızda sabitliyin və qarşılıqlı anlaşmanın yüksək səviyyədə olduğu diqqətə çatdırılıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

# Bakı Atıcılıq Mərkəzi istifadəyə verilib

*Martın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Biləcəri qəsəbəsində Bakı Atıcılıq Mərkəzinin açılışında iştirak ediblər.*

Bildirilib ki, Bakı Atıcılıq Mərkəzi Avropada ən böyük atıcılıq komplekslərindən biridir. Mərkəz idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların və məşqlərin keçirilməsi üçün nəzərdə tutulub. Ərazidə inşa edilən bina və qurğuların hamısı Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verir. Binada müxtəlif funksional sahələr, o cümlədən kafe, VIP gözləmə və istirahət, idarəetmə, tədris, dopinq yoxlama, silahsaxlama, həmçinin təchizat-xidmət otaqları, 55 yerlik 2 konfrans və mətbuat zalı, tibb məntəqəsi, fitnes zal var. Güllə atıcılığı zallarında atış nəticələrini avtomatik qeydə alan, xalları hesablayıb monitorlara və idarəetmə mərkəzinə ötürən «Sius Ascor» markalı (İsveçrə) müasir elektron sistemləri və avadanlıqları quraşdırılıb. On metrlik məsafəyə qapalı atış tirində 80 idmançının eyni vaxtda yarışmasına imkan verən atış xətti quraşdırılıb. İyirmi beş metrlik məsafəyə yarımqapalı atış tirində 50 idmançı eyni vaxtda yarışa bilər.

Burada 346 oturacaq quraşdırılıb. Əlli metrlik məsafəyə yarımqapalı atış tirinin xətti isə eyni vaxtda 80 idmançıya bacarığını sınamağa imkan verir. Üç yüz metrlik məsafəyə yarımqapalı atış tirində də idmançıların yüksək səviyyədə yarışmaları üçün hərtərəfli imkanlar var. Burada eyni vaxtda 40 idmançı yarışa biləcək. Final yarışlarının keçirilməsi üçün nəzərdə tutulan 10, 25 və 50 metr məsafəyə atış üzrə qapalı tirlərdə eyni vaxtda 15 idmançı mübarizə aparacaq. Güllə atıcılığı binasında Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə uyğun olaraq qurulan zalların hər birində idmançılara, hakimlərə, məşqçilərə xidmət edəcək xüsusi otaqlar yaradılıb. Binanın ikinci mərtəbəsində atıcılıq zallarının nəzarət otaqları və baxış eyvanı, təlim-tədris, məşqçi, iclas otaqları və digər inzibati-texniki otaqlar yaradılıb.

Stend atıcılığı sahəsində idmanın dairəvi və səngər stend atıcılığı növü üzrə yarışlar və məşqlər keçiriləcək. Burada biri final yarışları üçün nəzərdə tutulmaqla 5 atış meydançası inşa edilib. Bu meydançalarda səngər atış hərəkətləri üçün 75 hədəftullayıcı avadanlıq quraşdırılıb. Dairəvi atış hərəkətləri üçün inşa edilmiş 5 qüllədə isə 10 hədəftullayıcı avadanlıq var. İtaliyanın «Mattarelli» markalı hədəftullayıcıları Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verən avadanlıqlardır.

Beləliklə, belə müasir idman kompleksinin istifadəyə verilməsi «Bakı-2015» ilk Avropa Oyunları zamanı bu idman növləri üzrə də yarışların yüksək səviyyədə keçirilməsinə imkan yaradacaq.

2 Aksizlərlə bağlı qərar qüvvəyə minib
3 Operativ vergi nəzarəti üzrə beynəlxalq təcrübə
4 Çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları
5 Nağd əməliyyat aparan bütün obyektlərdə POS-terminallar quraşdırılacaq

# Aksizlərlə bağlı qərar qüvvəyə minib

*Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri yeni redaksiyada təsdiq edilib. Mart ayından qüvvədə olan bu qərar «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2015-ci il tarixli fərmanına əsasən qəbul edilib.*

Qərara əsasən, 1 litr ölçü vahidi götürülməklə səməni pivəsi üçün 1 manat, təbii üzüm şərabları, spirt qatılmışlar daxil olmaqla, üzüm suslosu üçün 2 manat, şampan şərabı üçün 2,5 manat, qıcqırma prosesində və ya spirt əlavə edilməkdən fərqli üsulla dayandırılmış qıcqırma ilə alınmış digər üzüm susloları üçün 0,1 manat, vermutlar və bitki və ya aromatik ekstraktların əlavəsi ilə digər təbii üzüm şərabları üçün 2 manat, digər qıcqırdılmış içkilər (sidr, perri və ya armud sidri, ballı içki), qıcqırdılmış ickilərin qarışıqları və qıcqırdılmış içkilərlə spirtsiz ickilərin qarışıqları 2 manat, denaturasiya olunmamış etil spirti 80%, həcm və ya çox spirt qatılığı üçün 2 manat, üzüm çaxırının və ya üzüm pucallarının distillə edilməsi nəticəsində alınan spirtli tinkturalar üçün 6 manat, viski üçün 6 manat, rom və digər spirtli tinkturalar, şəkər qamışının qıcqırdılmış məhsullarının qovulması nəticəsində alınan məhsullar üçün 6 manat, cin və ardıc tunkturası üçün 6 manat, araq üçün 6 manat, likörlər üçün 6 manat, digər spirtli içkilər üçün 6 manat, 80 həcm faizindən az qatılığı olan denaturallaşdırılmamış etil spirti üçün 2 manat aksiz dərəcələri tətbiq olunacaq.

Ölçü vahidi olaraq 1000 ədəd götürülməklə tərkibində tütün olan siqarlar, ucları kəsilmiş siqarlar və siqarillalar üçün 10 manat, tərkibində tütün olan siqaretlər üçün 4 manat, digər siqaretlər və siqarillalar üçün 4 manat aksiz dərəcəsi müəyyənləşdirilib. Ölçü vahidi 1 ton olmaqla yüngül distilyatlar və məhsullar (emalın spesifik prosesləri) üçün 80 manat, yüngül distilyatlar və məhsullar üçün 1 manat aksiz dərəcələri tətbiq olunacaq.

Yanacağa gəlincə, ölçü vahidi 1 ton olmaqla xüsusi benzinlər (uayt-spirit) 1 manat, digər xüsusi benzinlər üçün 1 manat, aviasiya benzinləri üçün 1 manat, mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə benzinlər üçün 200 manat, mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95 və ya daha çox, lakin 98-dən çox olmayan oktan ədədi ilə benzinlər üçün 80 manat, mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 98 və ya çox oktan ədədi ilə benzinlər üçün 120 manat, mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə benzinlər üçün 200 manat, mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox benzinlər üçün 80 manat, mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 98 və ya çox oktan ədədi ilə benzinlər üçün 120 manat, reaktiv benzin yanacağı üçün 1 manat, digər yüngül distilyatlar üçün 1 manat, orta distilyatlar (emalın spesifik prosesləri) üçün 80 manat, orta distilyatlar (proseslərdə kimyəvi çevrilmələr) üçün 1 manat, digər məqsədli kerosin üçün 80 manat, digər orta distilyatlar üçün 80 manat, qazoyllar üçün 80 manat, maye yanacaq üçün 1 manat aksiz dərəcəsi tətbiq olunacaq.

Ölçü vahidi 1 ton olmaqla sürtkü yağları və digər yağlar (emalın spesifik prosesləri) üçün 1 manat, sürtkü yağları və digər yağlar: proseslərdə kimyəvi çevrilmələr üçün 1 manat, mühərrik yağları, kompressor sürtkü yağı, turbin sürtkü yağı üçün 50 manat, hidravlik məqsədli mayelər üçün 1 manat, açıq rəngli yağlar, vazelin yağı üçün 1 manat, dişli çarxlar və reduktorlar üçün yağ 1 manat, metalların emalı üçün tərkiblər, qəliblərin yağlanması üçün yağlar, antikorroziya yağları üçün 1 manat, elektrik izolyasiya yağları üçün 50 manat, digər yağlar üçün 1 manat, qazoyllar üçün 80 manat, maye yanacaq üçün 1 manat, digər neft məhsulları üçün 50 manat, neft vazelini üçün 10 manat, neft koksu, neft bitumu və neftin və ya neft məhsullarının emalından qalan, o cümlədən bitumlu minerallardan alınmış digər qalıqlar üçün 24 manat, təbii bitum və asfalt (bitumlu şistlər və ya neftli şist və bitumlu qum daşı; asfaltitlər və asfalt süxurları) üçün 1 manat, təbii asfalt, təbii bitum, neft bitumu, mineral qatranlar və ya mineral qatranların peki (məsələn, bitumlu mastika, yol örtükləri üçün asfalt qarışıqları) əsasında bitumlu qarışıqlar üçün 1 manat aksiz dərəcələri tətbiq olunacaq.

**R.SADIQOV**

# Çağrı Mərkəzinə daxil olmuş müraciətlər

**2015-ci ilin fevral ayında Vergilər Nazirliyinin Çağrı Mərkəzinə 17978 zəng daxil olmuşdur.**

Canlı əlaqə zamanı 17761 müraciət cavablandırılmışdır ki, onların da 52,5%-i Vergi Məcəlləsi (vergi nəzarəti tədbirləri, şəxsi hesab vərəqəsi, vergi orqanlarının fəaliyyəti, vergilərin ödənilməsinin ümumi müddəaları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri, vergi agenti və s.), 17,7%-i Vergilər Nazirliyinin səlahiyyətlərində olan, lakin Vergi Məcəlləsi ilə tənzimlənməyən məsələlər (elektron xidmətlərin proqram təminatları, mesajların mətni, arayışlar, elektron imza, asan imza, əmək müqavilələri, işə qəbul və s.), 13,2%-i gəlir vergisinin, 7,3%-i əlavə dəyər vergisinin, 3,4%-i sadələşdirilmiş verginin hesablanması, ödənilməsi və bəyannamənin təqdim edilməsi, qalanları digər məsələlər barədə olmuşdur.

Hesabat dövründə vergi ödəyiciləri 2269 dəfə vergi borcu, 1092 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə etmişlər. Vergi ödəyicilərinə 37606, o cümlədən 35972 qısa, 1634 ikitərəfli mesaj xidməti göstərilmişdir.

Fevral ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 376919 daxilolma qeydə alınmışdır.


## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2014-cü ilin yekunlarına görə:**

- Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər **gəlir vergisinin** bəyannaməsini;
- Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər **mənfəət vergisinin** bəyannaməsini;
- Əmlak vergisinin ödəyicisi olan müəssisələr **əmlak vergisinin** bəyannaməsini;
- Azərbaycan Respublikasının ərazisində 2014-cü ilin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin bəyannaməsini

**Cari ilin mart ayının 31-dən gec olmayaraq**
**vergi orqanına təqdim etməyə, hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.**

Bildiririk ki,
**Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57-ci, 58-ci və 59-cu maddələrinə əsasən:**

- vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına
- əsasən **40 manat** məbləğində;
büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin **50%**-i miqdarında maliyyə sanksiyası tətbiq edilir;
- vergilər qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, bir ildən çox olmamaqla ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin **0,1%**-i miqdarında faiz tutulur.

Əlavə məlumat üçün «195» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**
www.taxes.gov.az • www.e-taxes.gov.az


# Yol vergisinin bəzi müddəalarında dəyişikliklər edilib

*«Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında» Qanunla yol vergisinin müddəalarında bir sıra əlavə və dəyişikliklər edilmişdir. Qanuna əsasən, Vergi Məcəlləsinin 209-cu, 210-cu, 211-ci və 212.3-cü maddələrinə dəyişikliklər olunmuş, yeni 211.4-cü maddə əlavə edilmiş, 212.2-ci və 212.4-cü maddələr isə ləğv edilmişdir.*

Əsas dəyişiklik yol vergisinin ödəyicilərinin dəyişdirilməsi ilə tələblərinə görə, Azərbaycan Respublikasının ərazisinə daxil olan və buranı tərk edən zaman yol vergisinə cəlb olunmalı xarici dövlətlərin avtonəqliyyat vasitələri, habelə Azərbaycan ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal edilən avtomobil benzini, dizel yanacağı və maye qaz yol vergisinin vergitutma obyekti hesab olunur.

Yeni qanuna görə, Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi onların hər litrinin topdansatış qiymətinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır. İdxal olunan avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisi Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin onların hər litrinin topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinə (ƏDV və aksiz daxil olmaqla) 0,02 manat əlavə edilməklə hesablanır.

Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər yol vergisini aylıq olaraq hesablamalı və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə yol vergisi bəyannaməsini vergi orqanına təqdim etməklə həmin müddətdən gec olmayaraq vergini dövlət büdcəsinə ödəməlidirlər.

Yol vergisinə yeni əlavə edilmiş 211.4-cü maddədə bildirilir:




bağlıdır. Ləğv edilmiş 212.2-ci və 212.4-cü maddələrə görə, illik yol vergisi ödənildikdən sonra avtonəqliyyat vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və texniki baxışı həyata keçirilirdi. Dəyişiklikdən sonra Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri vergitutma obyekti deyildir. Yəni 2015-ci ildən mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi və fiziki şəxslər illik yol vergisi ödəməyəcəklər. Qanunvericiliyin yeni

«Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) avtomobil benzininə, dizel yanacağına və maye qaza görə hesablanmış yol vergisinə nəzarət dövlət vergi orqanları, Azərbaycan Respublikasının ərazisinə idxal edilən avtomobil benzininə, dizel yanacağına və maye qaza görə yol vergisinin hesablanmasına və ödənilməsinə nəzarət isə gömrük orqanları tərəfindən həyata keçirilir».

**Rəşad SADIQOV**

# Əksər banklar kapitallaşma ilə bağlı tələbi yerinə yetirib

Mərkəzi Bank (MB) ölkədə fəaliyyət göstərən bankların məcmu kapitalına görə yeni siyahısını dərc edib. Siyahıya əsasən, 45 bankdan doqquzunun məcmu kapitalı 100 milyon manatdan çoxdur. Doqquz bankın məcmu kapitalı 60-100 milyon, 23 bankınkı isə 50-60 milyon manat arasındadır. Dörd bank məcmu kapitala dair minimal tələbi hələ də yerinə yetirməyib.

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov bildirib ki, kapitala dair minimal tələbi hələ də yerinə yetirməmiş banklarda kifayət qədər əmanətləri və kreditləri olan vətəndaşlar var. Onlar nigarançılıq içindədir, sabah nə olacağını bilmirlər. Hazırda manatın devalvasiyasının baş verdiyi bir vaxtda hansısa bankın bağlanması əlavə problem yarada bilər.

İqtisadçının sözlərinə görə, MB banklara tələblərin 2014-cü il yanvarın 1-dək yerinə yetirilməsi barədə qərar vermişdi: «2013-cü ilin sonlarında bank bazarı ilə bağlı aparılan araşdırmalar zamanı bankların yarısından çoxunun tələb olunan həddi yerinə yetirmədiyi məlum oldu. 15 bankın isə həmin məbləğin 30%-i qədər nizamnamə kapitalına malik olduğu təsdiq edildi. Buna görə də vəziyyəti nəzərə alan MB İdarə Heyətinin 14 noyabr 2013-cü il tarixli qərarı ilə banklara məcmu kapitalın 50 milyon manata çatdırılması üçün 1 yanvar 2015-ci ilədək möhlət verildi. Kapitallaşma ilə bağlı möhlətin daha bir il uzadılmasının səbəbi bank kreditorlarının və əmanətçilərinin vəsaitlərinin təhlükəsizliyinin təmin olunması, bütövlükdə bank sektorunun maliyyə sabitliyinin qorunması zərurəti ilə izah edildi».

Son bir il ərzində kommersiya banklarının kapital mövqeyi xeyli yaxşılaşıb və kapitallaşma ilə bağlı hədəfə nail olunub. Kapitalın keyfiyyəti və həcmi artırılıb. 2014-cü ildə ölkədə bankların ümumi məcmu kapitalı iki dəfədən çox artaraq 6 milyard manatı ötüb. MB-nin kapitallaşma ilə bağlı qərarının qəbulundan sonra son 1 ildə kapitalı 100 milyon manatdan çox olan özəl bankların sayı iki dəfə artıb, bank sisteminin kapital adekvatlığı da 3,4 faiz bəndi artaraq 20%-ə çatıb. Bu göstərici beynəlxalq standartların tələbini iki dəfə, MB-nin minimum normativ tələbini isə 5 faiz bəndi üstələyir. Yəni ölkə üzrə bankların 90%-i beynəlxalq institutların tələblərinə cavab verən kapital ehtiyatlarına malikdir və likvidlik göstəriciləri sabitdir. Bank bazarında fəaliyyəti qeyri-qənaətbəxş hesab edilən və nizamnamə kapitalını artıra bilməyən 4 bankın isə 3 yolu var. Onlar ya birləşməli, ya kredit təşkilatına çevrilməli, ya da bağlanmalıdır. Həmin banklarla bağlı yekun qərarın yaxın vaxtlarda veriləcəyi gözlənilir.

*Kapital bazasının gücləndirilməsi banklara etimadın daha da artırılması və onların beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir*

İqtisadçı Aydın Hüseynov isə hesab edir ki, artıq bank və maliyyə sektorunda vəziyyət elə həddə çatıb ki, kapital resursları 50-100 milyon manat olan kommersiya bankları normal rəqabət şəraitində işləyə bilər. Bundan aşağı ehtiyatlara malik bankların bazarda qalmasının heç bir faydası yoxdur və onlara güzəşt edilməsi də məqsədəuyğun deyil: «Beynəlxalq maliyyə qurumları tərəfindən hələ 2011-ci ildə bankların məcmu kapitalının artırılması irəli sürülmüşdü. Onlar bankların maliyyə sabitliyi və dayanıqlığının gücləndirilməsi məqsədilə MB qarşısında kapital tələbinin əhəmiyyətli dərəcədə artırılması barədə tövsiyə ilə çıxış etmişdilər. Çünki hazırkı mərhələdə bank sisteminin maliyyə vasitəçiliyinin genişləndirilməsi, qlobal maliyyə bazarlarına inteqrasiya, bank xidmətlərinin keyfiyyətinin təmin olunması üçün bankların kapitallaşmasının davam etdirilməsi zəruridir. Kapital bazasının gücləndirilməsi banklara etimadın daha da artırılması və onların beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ona görə də bazarda kifayət qədər sağlam, likvid və maliyyə ehtiyatları güclü olan bankların qalması vacibdir və maliyyə xidmətlərinə çıxış imkanları zəif olan subyektlərin normal fəaliyyət göstərməsi mümkün deyil».

**E.CƏFƏRLİ**

# Regionlar üzrə vergi daxilolmalarının həcmi artıb

*«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrası ilə bağlı bir il ərzində ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin yaxşılaşdırılması, ümumilikdə bölgələrin hərtərəfli inkişafı sahəsində əhəmiyyətli işlər görülüb. Son bir ildə iqtisadiyyatın sənaye, kənd təsərrüfatı, sahibkarlığın inkişafının dəstəklənməsi, infrastruktur, təhsil, səhiyyə, mədəniyyət, idman, informasiya-kommunikasiya texnologiyaları, sosial inkişaf, turizm və digər sahələrdə mühüm uğurlar əldə edilib.*

***Xərclərini yerli gəlirlər hesabına maliyyələşdirən şəhər və rayonların sayı artır***

Son bir ildə regionların inkişafına bütün mənbələr hesabına 4,5 milyard manatdan artıq vəsait yönəldilib. Dövlətin maliyyə dəstəyi sayəsində 5560 sahibkara 295 milyon manat güzəştli kredit verilib və 12500-dən çox yeni iş yerinin açılması imkanı yaradılıb. Sahibkarlığın inkişafı məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, prosedurların sadələşdirilməsi, əsassız müdaxilələrin qarşısının alınması və digər istiqamətlər üzrə mühüm işlər görülüb. Regionlarda 4400 müəssisə fəaliyyətə başlayıb, sahibkarlıq subyektlərinin sayı 2004-cü illə müqayisədə 2,5 dəfə artaraq 386 minə çatıb. Regionlar üzrə vergi daxilolmaları ötən ilə nisbətən 9,8% artıb. Xərclərini yerli gəlirlər hesabına maliyyələşdirən şəhər və rayonların sayı 6-ya çatıb.

İl ərzində regionlarda 155 məktəb, 30 tibb müəssisəsi, 11 gənclər və idman, 43 mədəniyyət və digər sosial obyektlər tikilib və ya əsaslı təmir olunub. Məcburi köçkünlər üçün 7 yeni yaşayış kompleksi salınıb, 4450 ailənin və ya 22 min məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb, əlil və şəhid ailələri üçün 5 yaşayış binası tikilib istifadəyə verilib.

2014-cü ilin «Sənaye ili» elan edilməsi və bu çərçivədə tədbirlər planının icrası bölgələrdə də sənayenin inkişafına təkan verib, regionlarda 105 sənaye müəssisəsi açılıb. «Sənaye ili»ndə görülən tədbirlər nəticəsində qeyri-neft sənayesi 9% artıb. Hazırda Sumqayıt Texnologiyalar Parkı fəaliyyət göstərir, Sumqayıt Kimya Sənayesi, Balaxanı Sənaye və Yüksək Texnologiyalar parklarının təşkili istiqamətində işlər aparılır.

Regionların inkişaf proqramlarının icrasından ötən 11 il ərzində bölgələrə 55 milyard manata yaxın vəsait yönəldilib. Buna müvafiq olaraq büdcə daxilolmaları son 11ildə 1 milyard 220,9 milyon manatdan 19 milyard manatadək və ya 7,5 dəfə artıb. Bu dövrdə ölkədə 1 milyon 360 min yeni iş yeri açılıb. Təkcə ötən il 200 mindən artıq yeni iş yeri yaradılıb.

Respublikamızda sosial infrastrukturun yaxşılaşması, yeni infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində də əhəmiyyətli irəliləyişlər əldə olunub. Son 11 ildə 2900 məktəb, 560 tibb ocağı tikilib və təmir olunub. Regionlarda 41 olimpiya-idman, o cümlədən 30 gənclər mərkəzi yaradılıb. Məcburi köçkünlər üçün 84 qəsəbə salınıb, fərdi yaşayış evləri tikilib, 210 min məcburi köçkün yeni evlərə köçürülüb. Bu məqsədlər üçün 2,6 milyard dollar vəsait xərclənib. Son 11 ildə ümumi gücü 2400 meqavat olan 23 elektrik stansiyası tikilib, ölkədə 64 min müəssisə yaradılıb.

***Sahibkarlığın inkişafı diqqət mərkəzindədir***

Son 11 il ərzində azad sahibkarlıq, biznes və investisiya mühitinin yaxşılaşdırılması, həyata keçirilən dövlət dəstəyi tədbirləri regionların iqtisadi potensialını gücləndirməklə sahibkarlığın inkişafına təkan verib. Sahibkarlara Kömək Milli Fondunun xətti ilə iki milyard manat həcmində güzəştli kreditlər verilib və həmin vəsait iqtisadiyyatın real sektoruna ayrılıb.

Həyata keçirilən tədbirlər nəticəsində regionlarda əhalinin məşğulluq səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib, işsizlik və yoxsulluq 5% səviyyəsinə düşüb. Bu siyasət sosial sahədə mühüm dəyişikliklərə səbəb olub, özəl bölmədə çalışanların gəlirləri bir neçə dəfə artıb, eyni zamanda, ölkə üzrə vətəndaşların aylıq gəlirlərində artım baş verib.

***Hər bir rayonda sənaye zonaları yaradılacaq***

İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Zaur Qasımovun sözlərinə görə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət ölkədə işgüzar fəallığın artması və regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsi, yeni innovasiyaların tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir: «Bölgələrdə ən müasir texnologiyaların tətbiq olunduğu, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisələrin yaradılması davam edir».

Qeyd olunub ki, 2015-ci ildə və növbəti illərdə hər bir rayonda sənaye zonalarının yaradılması, yeni sənaye layihələrinin həyata keçirilməsi, ayrı-ayrı bölgələrdə sənaye məhəllələrinin, texnoparkların və biznes-inkubatorların yaradılması istiqamətində də işlər görüləcək. İnnovativ sahibkarlığın stimullaşdırılması,ölkədə istehsal olunan məhsulların xaricə ixracının təmin edilməsi, dünyadakı qabaqcıl təcrübələrin Azərbaycanda tətbiqi, istifadəsiz torpaqlara nəzarət mexanizminin gücləndirilməsi, torpaqların elektron uçotunun aparılması ilə bağlı tədbirlər nəzərdə tutulur.

Regionlarda qeyri-neft məhsullarının inkişafı mühüm əhəmiyyət kəsb edir və məqsəd bu sahəni ölkə iqtisadiyyatının inkişafında aparıcı bölməyə çevirməkdir. Nəzərdə tutulan plana əsasən, bölgələrdəki qeyri-neft ehtiyatlarının istehsal imkanlarını artırmağa, istifadə edilməmiş iqtisadi və təbii resursları istehsala cəlb etməyə, elmtutumlu rəqabətqabiliyyətli milli istehsal formalaşdırmağa, elmin istehsala inteqrasiyasını daha da gücləndirməyə üstünlük verilir. Yaxın gələcəkdə regionlardakı iqtisadi sərvətlərin, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması hesabına milli gəlirin iki dəfə çoxalması nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

# Operativ vergi nəzarəti üzrə beynəlxalq təcrübə

*Qabaqcıl vergi inzibatçılığına malik ölkələr könüllü əməletməni təşviq edən alətlərdən istifadə etsələr də, inzibati qaydaların təkmilləşdirilməsini də diqqətdən kənarda qoymurlar. Bütün yoxlamalar vergi qanunvericiliyinə əməletməni təmin etmək üçün tətbiq olunur. Təbii ki, hər yoxlama növünün obyekti, predmeti və maliyyə dəyəri bir-birindən fərqlənir...*

***Nəzarət-kassa aparatlarından istifadə zamanı qanun pozuntuları***

Satışdan əldə olunan gəlirlər artıq dünya miqyasında kompüter texnologiyasından istifadə edilməklə gizlədilir ki, bu da vergi daxilolmalarını əhəmiyyətli dərəcədə azaldır. Vergi orqanları yoxlama məqsədləri üçün daxil olan məlumatların düzgünlüyündən öncə həmin məlumatların tamlığına əmin olmalıdır. Pərakəndə ticarətdə geniş istifadə olunan elektron kassa terminalı sistemi müəssisənin idarə olunmasında önəmli mühasibat sənədləri kimi istifadə olunur və həmin məlumatlar vergi yoxlayıcıları üçün əsas məlumat bazasını təşkil edir. Bununla belə, kompüter texnologiyalarından istifadə edərək həmin məlumatlar manipulyasiya oluna bilir. Buna «skimming» fəaliyyəti deyilir. «Skimming» fəaliyyəti, əsasən, kiçik və orta bizneslər üçün xarakterikdir. Çünki bu tip təşkilatlarda daxili nəzarət tədbirləri daha az tənzimlənir. Şirkət heç bir satışını kassa qeydiyyatından yayındırmır, lakin sahibkara lazım olan zaman qeydləri qismən gizlədə bilir. Satışlar və yaranan gəlirlər haqqında məlumatlar qeyri-dəqiq olduğuna görə, vergilər tam olaraq dövlət büdcəsinə daxil edilmir.

Kassa aparatlarının məlumat generasiyası müxtəlif mərhələlərdə vergitutma bazası kimi risk qrupuna aid edilir. Birinci risk zonası əməliyyatların tamlığını əks etdirməklə bağlıdır. Əgər məlumatlar tam, düzgün və aktual deyildirsə, vergi bəyannaməsi üçün yanlış məlumatlar təqdim olunur. İkinci risk istifadə olunan proqram təminatı ilə bağlıdır. Əgər proqram təminatı kassa aparatının bütün əməliyyatları barədə məlumatları, eləcə də arxiv məlumatlarını əhatə edə bilmirsə, qeyri-səlis məlumat riski yaranır. Üçüncü risk zonası ən təhlükəlidir. Məhz bu mərhələdə proqram təminatından istifadə edərək əməliyyatlar haqqında məlumat gizlədilir, manipulyasiya edilir, satışdan yaranan gəlirlər vergidən yayındırılır. Dördüncü risk məlumatların «offline» rejimdə ötürülməsi və saxlanması ilə bağlıdır. Yəni kassa terminallarında qeydiyyat yaddaşının dolması nəticəsində məlumatlar bazaya daxil olmur. 5-ci risk zonası üzrə hesabatların hazırlanması zamanı manipulyasiyaya əl atılır.

Bu risklərin aradan qaldırılması üçün ən optimal yol kassa aparatlarının vergi orqanlarının bazası ilə birbaşa inteqrasiyasını təmin etməkdir.

***Proqram təminatları***

Beynəlxalq aləmdə kassa aparatlarının istifadəsi üzrə problemlərin bir istiqaməti də aparılmış qeydlərin xüsusi proqramlardan istifadə edilməklə silinməsidir. İnkişaf etmiş ölkələrdə «Zappers» və «Phantom-ware» kimi proqram təminatları mövcuddur. «Zappers» satışdan əldə olunan gəlirləri gizlətmək üçün istifadə olunur. Bu proqram təminatı USB daşıyıcılar, CD-lər və ya internet vasitəsilə yayılır. «Zappers» proqramının xüsusiyyətlərindən biri də ən çox satılan mallar, məsələn, içki və un məhsulları üçün satıcı tərəfindən müştəriyə təqdim edilən qəbzdə məbləğ tam qeyd olunduğu halda, bunun kassa aparatının elektron yaddaşına yazılmamasını təmin etməsidir. Bu, iri marketlərlərə vergidən yayınmaq imkanı yaradır. «Zappers» kassa aparatının yaddaşına quraşdırılmır, sadəcə yaddaş kartı vasitəsilə istifadə olunur. Son təhlillər kassa terminalları istehsalçılarının məlumatların gizlədilməsi mexanizmini dəstəkləyən proqram təminatı təklif etdikləri versiyasını gündəliyə gətirir. Bir sıra inkişaf etmiş ölkələrdə vergi məqsədləri üçün məlumatların tamlığını və dəqiqliyini təmin etmək üçün qanunvericiliklə şirkətlərin məlumat-uçot sisteminin aparılma qaydaları tənzimlənir.

Satışdan əldə olunan gəlirlərin gizlədilməsini müəyyən etmək məqsədi ilə universal vergi yanaşması mövcuddur. Buraya ödəyicinin vəsaitinin nəzərəçarpacaq dərəcədə az olduğu müəyyən edildikdə bəyan edilməyən gəlirlərin mövcudluğu ehtimalının yaranması, kassadakı vəsaitin mənfi balansının ödəyicinin hesabatda göstərilən məbləğdən artıq olması və s. daxildir.

***Qeydiyyatsız sahibkarlıq fəaliyyəti***

Bu fəaliyyət nəticəsində vergi orqanları dövlət büdcəsinə daha az vəsait cəlb edir, sosial müdafiə müəssisələri ödənişlər əldə etmir və qeydiyyata alınmayan fəaliyyətlər tam sosial müdafiə ilə müntəzəm məşğulluğun yaranmasını qismən məhdudlaşdırır. Dünyanın əksər ölkələrində, o cümlədən Avstriya, Danimarka, Estoniya, Almaniya, Finlandiya, İrlandiya, Niderland, Norveç, İsveç, Birləşmiş Krallıqda qeydiyyata alınmadan göstərilən fəaliyyətlərlə əsas mübarizə aparan dövlət orqanı vergi administrasiyalarıdır. Mübarizə tədbirlərinin həyata keçirilməsində məqsəd məşğulluğun artırılması və qanuni fəaliyyətə keçiddir.

*Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsinin icmalı əsasında hazırladı:*
**A.NƏBİYEVA**






Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi nəzarəti və onun səmərəliliyinin artırılması

Vergi qanunvericiliyinə əməl olunmasına nəzarətin təmin olunması üçün vergi orqanlarının qarşısında duran vəzifələrdən biri bu nəzarətin səmərəliliyinin artırılmasıdır. Dövlətin funksiyalarının həyata keçirilməsi üçün maliyyə vəsaitlərinə daimi tələbatın ödənilməsi vergitutma mexanizminin fasiləsiz fəaliyyətini tələb edir. Bu baxımdan, vergilərin düzgün hesablanmasına, dövlət büdcəsinə tam və vaxtında ödənilməsinə nəzarət tədbirlərinin gücləndirilməsi aktual məsələlərdən biridir.

Vergi orqanlarının həyata keçirdikləri vergi nəzarəti tədbirlərində vergi yoxlamalarının, o cümlədən səyyar vergi yoxlamalarının rolu böyükdür. Səyyar vergi yoxlamaları vergi ödəyicilərinin seçilməsini və onların yol verdikləri pozuntuların daha az xərc çəkməklə yoxlamalar nəticəsində aşkar edilməsini tələb edir. Buna görə də vergi ödəyicilərinin düzgün seçilməsi nəzarətin səmərəliliyi üçün mühüm əhəmiyyət kəsb edir və onun həyata keçirilməsində aşağıdakı amillərin nəzərə alınması zəruridir:

- yoxlama ilə əhatə olunması üçün maliyyə vəziyyətləri tez-tez dəyişən təşkilatların seçilməsi;
- əvvəllər keçirilmiş yoxlamalar zamanı daha çox pozuntu hallarına yol vermiş vergi ödəyicilərinin seçilməsi;
- vergi bəyannamələrini vaxtında verməyən və vergiləri müəyyən olunmuş müddətdə ödəməyən, habelə bir neçə bank hesablarından istifadə edən ödəyicilərin seçilməsi.

Adətən, vergi ödəyicisinin təqdim etdiyi vergi hesabatları şübhə doğurduqda, vergi orqanları səyyar vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edirlər. Bundan əlavə, xüsusi proqram təminatı vasitəsilə aparılan real qiymətləndirmə əsasında vergi ödəyicilərinin seçimi həyata keçirilir. Vergi ödəyicilərinin düzgün seçimi ilə yanaşı, əsas vəzifələrdən biri vergi nəzarəti metodlarının təkmilləşdirilməsidir.

Vergi nəzarəti tədbirlərinin keçirilməsi ilə bağlı aparılmış təhlillər göstərir ki, vergi ödəyicilərinin vergidən yayınması faktlarının əsas hissəsi mühasibat uçotunun aparılmaması və ya onun qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun aparılmaması ilə bağlıdır. Bu cür hallarda vergi orqanları vergi ödəyicisinin ödəməli olduğu vergiləri qanunvericiliklə müəyyən olunmuş xüsusi qaydalar əsasında müəyyən edirlər.

Vergi nəzarətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri də onun məhkəməyə qədər və məhkəmə qaydasında tənzimlənməsidir. Mübahisələrin məhkəməyə qədər həll olunması vergi nəzarəti sahəsində daha səmərəli tədbir hesab edilir. Son dövrlərdə vergi orqanlarının səlahiyyətlərinin müəyyən çərçivəyə salınması üçün vergilərin məcburi qaydada alınması müddətlərinin məhdudlaşdırılması və ya maliyyə sanksiyasının tətbiqi, vergilərin yenidən hesablanması müddətlərinin azaldılması və s. kimi məhdudiyyətlər qanunvericiliklə müəyyən olunmuşdur. Bunlar isə vergilərin itirilməsi risklərinin artmasına səbəb olur.

Qanunvericilikdə mübahisəli və ziddiyyətli məqamlar olduqda məhkəmə qərarı bir qayda olaraq vergi ödəyicisinin xeyrinə çıxarılır. Bununla belə, vergi orqanlarının nəzarət tədbirləri nəticəsində tətbiq etdikləri sanksiyalar, əlavə hesablamalar ildən-ilə artmaqda davam edir. Eyni zamanda, vergi orqanları tərəfindən vergi nəzarəti tədbirlərinin qanunvericiliklə müəyyən olunmuş prosedurlarının gözlənilməməsi, vergi hüquqpozmaları faktlarının tam əsaslandırılmaması və nəzarətin keyfiyyətinin aşağı olması vergi ödəyicilərinin şikayətləri üzrə qərarın onların xeyrinə çıxarılmasına səbəb olur. Bu cür problemlərin həlli üçün vergi orqanları qarşısında duran əsas vəzifələrdən biri vergi nəzarətinin səmərəliliyinin artırılmasıdır.

Vergi nəzarətinin səmərəliliyinin artırılması bu nəzarəti birbaşa həyata keçirən struktur bölmələrin fəaliyyətinin düzgün təşkilindən çox asılıdır. Bununla belə, nəzarətin səmərəliliyinin artırılmasında vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotu ilə bağlı işlərin də təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Vergi orqanlarının işinin kəmiyyət və keyfiyyət göstəricilərinin ətraflı təhlili və onun nəticəsinə uyğun olaraq vergi inzibatçılığının qurulması səmərəli vergi nəzarətinin təşkilinin vacib şərtlərindəndir. Vergi nəzarətinin təşkili və keçirilməsi məsələlərini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi də böyük əhəmiyyət kəsb edən amillərdəndir.

Buradan belə nəticəyə gəlmək olar ki, vergi nəzarətinin səmərəliliyinin artırılmasının əsas yollarından biri vergi nəzarətinin həyata keçirilməsi prosedurunun təkmilləşdirilməsidir. Bu istiqamətdə görülməsi vacib olan tədbirlərə vergi orqanlarının fəaliyyətinin obyektiv qiymətləndirilməsi sisteminin qurulması, vergi yoxlamaları ilə əhatə ediləcək vergi ödəyicilərinin dairəsinin düzgün müəyyənləşdirilməsi, vergi nəzarətinin qabaqcıl və müasir metodlarının tətbiqi daxildir. Vergi nəzarətinin bütün elementlərinin yaxşılaşdırılması bu tədbirlərin sistemli şəkildə və eyni vaxtda görüldüyü halda mümkün ola bilər. Təbii ki, vergi nəzarətinin təkmilləşdirilməsinə yönəldilən tədbirlər təkcə qeyd olunanlarla məhdudlaşmır. Vergi sistemi inkişaf etdikcə onun səmərəliliyinin artırılmasının yeni istiqamətləri də müəyyənləşdirilməlidir.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Müəssisənin yenidən təşkil edilməsi

***Təsisçisi olduğumuz müəssisəni yenidən təşkil etmək istəyirik. Bunun üçün vergi ilə bağlı məsələlər necə həll edilir?***

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 55.1-ci maddəsinə əsasən, hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər. Müəssisə (təşkilat) yenidən təşkil edildikdə vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı məsələlər Vergi Məcəlləsinin (VM) 80-ci maddəsi ilə tənzimlənir. VM-in bu maddəsinə əsasən, yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirməməsinin, yaxud lazımi qaydada yerinə yetirməməsinin yenidən təşkili başa çatanadək hüquqi varisə (hüquqi varislərə) məlum olub-olmamasından asılı olmayaraq, yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini onun hüquqi varisi (hüquqi varisləri) yerinə yetirməlidir. Hüquqi şəxsin yenidən təşkil edilməsi onun vergi öhdəliklərinin bu hüquqi şəxsin hüquqi varisi (hüquqi varisləri) tərəfindən yerinə yetirilməsi müddətlərini dəyişdirmir. Bir neçə hüquqi şəxs birləşdikdə onların vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi bu cür birləşmə nəticəsində yaranan hüquqi şəxs sayılır. Bir hüquqi şəxs digər hüquqi şəxsə birləşdirildikdə onun birləşdiyi hüquqi şəxs birləşdirilmiş hüquqi şəxsin vergilərinin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi sayılır. Hüquqi şəxs bölündükdə bu cür bölünmə nəticəsində əmələ gələn hüquqi şəxslər bölünmüş hüquqi şəxsin vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisləri sayılırlar. Bir neçə hüquqi varis olduqda onların hər birinin yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin öhdəliklərinin yerinə yetirilməsində iştirak payı bölüşdürücü balansa və ya digər təhvil aktına uyğun olaraq müəyyənləşdirilir. Bölüşdürücü balans və ya digər təhvil aktı yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin hər bir hüquqi varisinin payını müəyyənləşdirməyə imkan vermirsə və ya hər hansı hüquqi varis tərəfindən vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi imkanını aradan qaldırırsa, yeni yaranan hüquqi şəxslər yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin vergi öhdəliklərini və ya bu öhdəliklərin müvafiq hissəsini yerinə yetirmək üçün birgə məsuliyyət daşıyırlar. Bir hüquqi şəxs təşkilati-hüquqi formasının dəyişdirilməsi yolu ilə digər hüquqi şəxsə çevrildikdə onun vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi yeni yaranan hüquqi şəxs sayılır. Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs çıxdıqda, çıxmış hüquqi şəxslərin yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini yerinə yetirməsi üzrə hüquqi varisliyi yaranmır, bu şərtlə ki, həmin yenidəntəşkil hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirilməməsinə yönəldilməmiş olsun.

O da qeyd olunmalıdır ki, Mülki Məcəllənin 56-cı maddəsinə əsasən, hüquqi şəxslər birləşdikdə onlardan hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir. Hüquqi şəxs digər hüquqi şəxsə qoşulduqda, qoşulan hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq əvvəlki hüquqi şəxsə keçir. Hüquqi şəxs bölündükdə onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərə keçir. Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq onların hər birinə keçir. Bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə (təşkilati-hüquqi formanın dəyişməsi) yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir.

# Azərbaycanda sığorta bazarının böyük potensialı var



*Ölkəmizdə real sığorta bazarı təxminən 10-15 il əvvəl təşəkkül tapmağa başlayıb. Bu bazarın inkişafı, sığorta sahəsində maraq və maarifləndirmə tədbirlərinin, peşəkar xidmətin təşkili Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) fəaliyyəti ilə bilavasitə bağlıdır. Sığorta bazarındakı vəziyyət, burada baş verən proseslər, tətbiq edilən yeniliklər və bazarın inkişaf perspektivləri ilə bağlı məsələlərə aydınlıq gətirmək məqsədilə assosiasiyanın sədri Orxan Bayramova müraciət etdik.*

***- Orxan müəllim, rəhbərlik etdiyiniz assosiasiya neçə şirkəti birləşdirir?***

- ASA Azərbaycanın sığorta bazarında fəaliyyət göstərən 27 sığorta və 1 təkrar sığorta şirkətini özündə birləşdirib. Yəni bütün sığorta və təkrar sığorta şirkətləri assosiasiyamızın üzvüdür.

***- Deviziniz - «Sığortalı həyat rahat həyatdır!» Müştərilərimiz üçün bu rahatlığı tam təmin edə bilirsinizmi?***

- Sığorta dedikdə, əsas amil olaraq risk nəzərdə tutulur: məsələn, əmlakın zərərə uğraması, sağlamlığa xəsarət yetirilməsi və s. Əlbəttə, insanlar bu tip riskləri öz üzərlərində saxlamayaraq sığorta şirkətlərinə ötürəndə maddi ziyanlardan qorunaraq özlərinə rahatlıq təmin etmiş olurlar. Əgər 2013-cü il ərzində sığorta ödənişlərinin məbləği 122 mln. 804 min 276,19 manat olmuşdusa, 2014-cü ildə bu rəqəm 157 mln. 129 min 289,51 manata yüksəlmişdir. Ödənişlərdə 21,8% artım onu göstərir ki, sığorta şirkətləri müştəriyönümlü siyasətə üstünlük verirlər. Düşünürəm ki, bu istiqamətdə görülən işlər növbəti illərdə də davam etdiriləcəkdir.

***- Ötən il sığorta bazarının lideri hansı sığorta növü oldu?***

- 2014-cü ilin statistikasına əsasən, hesablanmış sığorta haqları və verilmiş sığorta ödənişləri üzrə «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası» növü sığorta bazarının lideridir. Bu sığorta növü üzrə sığorta haqlarının məbləği 70 mln. 321 min 329,50 manat, sığorta ödənişləri isə 30 mln. 195 min 254,70 manat təşkil etmişdir.

2013-cü ildə sığorta haqları 405 mln. 672 min 514,43 manat təşkil edirdisə, 2014-cü ilin yekunlarında bu rəqəmin 429 mln. 181 min 197,52 manata çatdığını müşahidə etdik. Bu isə ümumi sığorta bazarı üçün 5,6% artım deməkdir.

***- Könüllü sığorta sahəsində vəziyyət necədir?***

- 2013-cü ildə könüllü sığorta növləri üzrə sığorta haqları 270 mln. 965 min 799,97 manat təşkil etdiyi halda, 2014-cü ildə bu rəqəm 284 mln. 669 min 866,28 manata yüksəlmişdir. Artımın 5,05% təşkil etməsi onu göstərir ki, sığorta şirkətləri hər növbəti il könüllü sığorta növlərində artıma meyil göstərməkdədirlər.

***- Sığorta bazarına tətbiq edilən yeniliklər haqqında nə deyə bilərsiniz?***

- Bütün sahələrdə olduğu kimi, sığorta bazarında da müəyyən yeniliklər var. Tətbiq olunan yeniliklər sığorta bazarının inkişafına və neqativ halların aradan qaldırılmasına yönəlmişdir. Azərbaycandakı sığorta şirkətlərinin fəaliyyəti müasir tələblərə cavab vermək üçün təkmilləşdirilir. Bu istiqamətdə sığorta məhsullarının elektron qaydada satışını və elektron imza ilə təsdiqlənməsini qeyd etmək olar.

***- Həyat və qeyri-həyat sığortası sahəsində investisiya imkanları hansı səviyyədədir?***

- Azərbaycanın sığorta bazarı gənc olsa da, inkişafa meyilli və yüksək potensiala malikdir. Ölkəmizdə sığorta bazarı ümumi daxili məhsulun 0,7%-ni təşkil edir. Dünya Bankının Azərbaycan sığorta bazarı ilə bağlı hesabatına əsasən, bu rəqəm 4-6%-dək yüksələ bilər. Bu isə həyat və qeyri-həyat sığortasında kifayət qədər investisiya imkanlarının olmasına dəlalət edir.

***- Bazarın inkişaf perspektivlərini necə görürsünüz?***

- Qeyd etdiyim kimi, Dünya Bankının Azərbaycan sığorta bazarı ilə bağlı apardığı araşdırmada göstərilən rəqəmlərə çatmaq üçün bir sıra addımlar atılmalıdır. Əhalinin maarifləndirilməsi, sığorta mədəniyyətinin aşılanması, sığorta xidmətlərinin keyfiyyətinin artırılması və sığorta məhsullarına inamın yaradılması vacib şərtlərdəndir. Sığortalıların istehlakçı hüquqlarının qorunması əsas prioritetlərdən sayılır və sığorta şirkətlərinin 2014-cü il ərzində həyata keçirdiyi 157 mln. 129 min 289,51 manat məbləğində sığorta ödənişi bunun bariz nümunəsidir. Düşünürəm ki, bazar iqtisadiyyatının tələbləri bu istiqamətdə inkişafa dəstək olacaqdır.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları

*Çağrı Mərkəzi dövlət orqanında qanunçuluğun təmin edilməsi, müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, sui-istifadə hallarının qarşısının alınması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə təşkil olunur.*

Çağrı Mərkəzinin təyinatı təmsil etdiyi dövlət orqanının fəaliyyəti ilə bağlı sualların birbaşa və ya araşdırıldıqdan sonra cavablandırılmasından, məlumatlandırma və məsləhət xidməti göstərilməsindən, şikayətlərin qəbulu və yönəldilməsindən ibarətdir. Dövlət orqanlarına aid mərkəzlər tərəfindən müraciətlərin qəbulu və cavablandırılması ödənişsiz həyata keçirilir.

Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara görə, təmsil etdiyi dövlət orqanının səlahiyyətlərinə aid sual xarakterli müraciətlər daxil olduqda Çağrı Mərkəzi onları birbaşa və ya müraciət vərəqəsi tərtib edərək araşdırdıqdan sonra cavablandırmalıdır. Təmsil etdiyi dövlət orqanının səlahiyyətlərinə aid olan şikayət xarakterli müraciətlər daxil olduqda Çağrı Mərkəzi onları qeydiyyata alınmaqla araşdırılaraq cavablandırılması üçün həmin orqanın müvafiq struktur vahidinə göndərməlidir. Şikayətlərə baxılmasına görə aidiyyəti struktur vahidinin rəhbəri cavabdehlik daşıyır və o, şikayətə baxılmasının nəticəsi barədə müraciət edən şəxsə və Çağrı Mərkəzinə məlumat təqdim etməlidir. Çağrı Mərkəzi daxil olmuş müraciətlərin araşdırılması üçün əlavə sənədlərə və birgə araşdırmaya ehtiyac olduqda müraciət edən şəxsi təmsil etdiyi dövlət orqanının aidiyyəti struktur vahidinə dəvət edə bilər.

Qaydalara əsasən, Çağrı Mərkəzi, həmçinin, səsli menyu vasitəsilə müraciət edənlərə xidmət göstərilməli, o cümlədən növbəti işə saatlarında əks-əlaqə yaradılması üçün zəng sifarişi etmək imkanı təklif edilməli, növbəti iş günündə əks-əlaqə yaradılaraq müvafiq xidmət göstərilməlidir. Canlı rejimdə fəaliyyət zamanı müraciət edən şəxs növbədə 10 saniyədən çox gözləyərək dəstəyi asdıqda və təkrar zəng etmədikdə gün ərzində əks-əlaqə yaradılaraq ona müvafiq xidmət göstərilməlidir.

Çağrı Mərkəzi vasitəsilə verilən yanlış məlumatlar əsasında müraciət etmiş şəxsin əmələ pozuntu və ya çatışmazlıq aşkar olunarsa, Mərkəzin təmsil etdiyi dövlət orqanı həmin pozuntuların və çatışmazlıqların aradan qaldırılmasında kömək göstərməlidir.

Qaydalarda Çağrı Mərkəzinin əməkdaşlarının fəaliyyətinin monitorinqinin keçirilməsi də nəzərdə tutulub. Çağrı Mərkəzi təmsilçilərinin monitorinqi canlı rejimdə xidmətə nəzarət edilməsi prosedurna uyğun olaraq təmsilçinin ay ərzində monitorinq edilmiş müraciətlərinin nəticəsi üzrə göstəricisi nəzərə alınmaqla aparılır. Monitorinq zamanı nəticəsi qeyri-qənaətbəxş hesab olunmuş təmsilçi ilə fərdi iş aparılır, ona peşəkarlığının və xidmət səviyyəsinin yüksəldilməsi üçün 3 ayadək vaxt verilir. Müəyyən edilmiş müddətdən sonra da nəticəsi qənaətbəxş olmayan təmsilçi barəsində müvafiq qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət tədbirləri görülür, onun yerinə isə həmin dövlət orqanının bilik və peşə hazırlığı səviyyəsi qənaətbəxş olan başqa əməkdaşı təyin edilir. Çağrı Mərkəzinin digər əməkdaşlarının fəaliyyətinin monitorinqi proqnozlaşdırmanın, planlaşdırmanın, növbə qrafikinin, real rejimdə idarəetmənin, canlı rejimdə xidmətin monitorinqinin, təhlillər və təhlillər əsasında hazırlanmış həll yollarının səmərəliyi nəzərə alınmaqla həyata keçirilir.

Təmsilçilərin illik bilik və peşə hazırlığının müəyyənləşdirilməsi məqsədi ilə qiymətləndirmə keçirilməli və təlimlər təşkil olunmalıdır. Bununla yanaşı, iki ildə ən azı bir dəfə olmaqla Çağrı Mərkəzinin əməkdaşlarına fəaliyyət sahələrinə uyğun spesifik təlimlər keçilməlidir.

Qaydalarda Çağrı Mərkəzinin fəaliyyətini əks etdirən mütləq hədəflər də qeyd edilib:

- daxil olan zənglərin 30 saniyə ərzində cavablandırılmaya qəbulu faizi - minimum 80%;
- daxil olan zənglərin ümumilikdə cavablandırılmaya qəbulu faizi - minimum 90%;
- növbədə gözləmə müddəti 10 saniyədən çox olan zənglərin itirilmə faizi - maksimum 5%;
- müraciət vərəqəsi tərtib edilmiş müraciətlərin orta cavablandırma müddəti - sorğu xarakterli müraciət vərəqəsi üzrə - maksimum 7 gün, şikayət xarakterli müraciət vərəqəsi üzrə - maksimum 15 gün;
- müraciət vərəqəsi tərtib edilmiş müraciətlərin qanunvericilikdə nəzərdə tutulmuş müddətdə cavablandırılması - 99,9%;
- sorğu xarakterli müraciət vərəqəsi tərtib edilmiş müraciətlərin xüsusi çəkisi - maksimum 30%;
- əks-əlaqə səviyyəsi - 90%, xidmətin yararlılığı - minimum 97%;
- ilk əlaqədən müraciətin cavablandırılması faizi - minimum 75%;
- xidmətdən razıqalma faizi - minimum 85%;
- xidmətin keyfiyyəti- minimum 70%.

**AYTƏN**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-fevral aylarında Azərbaycanda pərakəndə ticarət subyektlərində istehlakçılara **3,5 mlrd. manatlıq** və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə **8,5%** çox əmtəə satılıb. Satılmış istehlak mallarının **50,1%-ni** ərzaq məhsulları, içkilər və tütün məmulatları, **49,9%**-ni qeyri-ərzaq malları təşkil edib və qeyri-ərzaq mallarının xüsusi çəkisi keçən ilin yanvar-fevral ayları ilə müqayisədə 3,3% bəndi artıb.
- Bu ilin ilk iki ayında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 1,5 dəfə artaraq **1688,7 min manat** təşkil edib. Əhali onlayn rejimdə sifariş verdikləri istehlak mallarının **92,7%-ni** hüquqi şəxslərin, **7,3%-ni** fərdi sahibkarların ticarət şəbəkələrindən alıb. Elektron ticarət dövriyyəsinin **95,9%-ni** qeyri-ərzaq malları təşkil edib.
- Cari ilin yanvar-fevral aylarında ictimai iaşə dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 14,3% artaraq **141,7 mln. manat** olub. Hüquqi şəxslərin iaşə obyektləri üzrə dövriyyənin həcmi **60,4 mln. manat**, bu sahədə fəaliyyət göstərən fərdi sahibkarların subyektləri üzrə isə **81,3 mln. manat** təşkil edib.

# Daşınmaz əmlak üzrə layihələrə çıxış «bir pəncərə» sistemi ilə mümkün olacaq

Daşınmaz əmlakın elektron qeydiyyatı layihəsi vətəndaşlara müvafiq orqanlara baş çəkmək zərurəti olmadan onlayn rejimdə kompleks xidmətlər almağa imkan verəcək. Bu barədə Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini Rafiq Cəlilov jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, hazırda daşınmaz əmlakın kadastrının rəqəmsal kartalarının yaradılması üzərində işlər aparılır, daşınmaz əmlak haqqında məlumat bazası elektron formata keçirilir, elektron qeydiyyat sistemi yaradılır və bu sahədə bir sıra digər vacib layihələr həyata keçirilir. Layihələrdən asılı olaraq, onlara çıxış «bir pəncərə» sistemi vasitəsi ilə mümkün olacaq ki, bu da əhaliyə göstərilən xidmətlərin səviyyəsini xeyli artırmağa xidmət edəcək. Bu gün Dövlət Komitəsinin saytında işə salınan elektron xidmətlərdən sutkanın 24 saatında istifadə etmək mümkündür.

# Belçikada təcrübə mübadiləsi

Belçika Krallığının İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Federal Dövlət Xidmətinin dəvəti ilə Azərbaycan nümayəndələri Brüssel şəhərində səfərdə olmuşlar. Səfər çərçivəsində təmsilçilərimizə elektron hökumət strategiyası və elektron biometrik şəxsiyyət vəsiqəsinin rolu, əhalinin qeydiyyata alınmasının Belçika modeli, şəxsiyyət vəsiqələrinin tarixi və müasir elektron biometrik şəxsiyyət vəsiqələrinin forması kimi məsələlər haqqında məlumatlar verilmişdir. Zetes təşkilatında biometrik şəxsiyyət vəsiqələrinin və pasportlarının istehsal prosesi ilə əyani tanışlıq olmuşdur.

Avropa Komissiyasında keçirilən görüşdə dövlət sektorunun modernizasiyası üsulları, daha təkmil dövlət xidmətlərinin həyata keçirilməsi və vətəndaş məmnunluğunun təmin edilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Avropa Komissiyasının 2011-2015-ci illər üzrə fəaliyyət planı, 2020-ci ilə qədər Avropa Komissiyasına daxil olan dövlətlər arasında ümumi elektron sənədləşməyə keçid ilə bağlı planlar, açıq hökumətin prinsipləri, Avropa infrastrukturunun birləşdirilməsi ilə bağlı məlumatlar maraqla qarşılanmışdır.

Tədbirdə Azərbaycan Vergilər Nazirliyinin əməkdaşı Natiq Curiyev, habelə Daxili İşlər Nazirliyinin və «ASAN xidmət»in nümayəndələri iştirak etmişlər.

# Qeyri-leqal əməyə qarşı mübarizə tədbirləri

Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin (ƏMEİS) tətbiqi qeyri-leqal əməyin qarşısının alınması, işçilərin gələcək sosial təminat hüquqlarının müdafiəsi, sosial sığorta haqları və vergi daxilolmalarının artırılmasına istiqamətlənib. Əmək müqaviləsi bildirişi üzrə informasiya sistemində mövcud olan real və etibarlı məlumatlar əmək bazarı ilə bağlı düzgün və obyektiv təhlillərin aparılmasına imkan verilir.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev qeyd edib ki, 2015-ci ilin 1 mart tarixinə ƏƏSMN-in «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi» elektron xidməti vasitəsi ilə elektron informasiya sisteminə 1.981.273 əmək müqaviləsi bildirişi daxil edilib. Onların 75,8%-i əmək müqaviləsinin bağlanması, 14,8%-i əmək müqaviləsinə dəyişikliyin edilməsi, 9,4%-i əmək müqaviləsinə xitam verilməsi ilə bağlı olub.

Martın 1-dək sistemdə 1 milyon 261 min 613 aktiv bildiriş olub ki, bunun da 93,6%-i hüquqi şəxs statusunda olan işəgötürənlərlə əmək müqaviləsi bağlayan işçilər üzrədir: «Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə əmək müqaviləsi bağlayaraq əmək fəaliyyətində olan

*Ən çox əmək müqaviləsi təhsil, səhiyyə, sosial xidmətlər, tikinti, ticarət, emal sənayesi sahələri üzrə bağlanılıb*



işçilər üzrə sistemdə 80.763 aktiv bildiriş (bütün aktiv bildirişlərin 6,4%-i) mövcud olub. 52.653 işəgötürən əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil edilməsi üçün qeydiyyata düşüb: onların 42,7%-i hüquqi şəxs statusunda olan işəgötürənlər, 57,3%-i isə sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxs statuslu işəgötürənlərdir».

Aktiv əmək müqaviləsi bildirişlərinin 53,1%-ni və ya 669.338-ni kişilər, 46,9%-ni və ya 592.275-ni qadınlar təşkil edib. Aktiv əmək müqavilələrinin 13,9%-i 25-29 yaş hədlərində, 13,23%-i 30-34 yaş hədlərində, 12,85%-i 50-54 yaş hədlərində olan şəxslər üzrədir. Bütün bağlanan əmək müqavilələrinin 0,65%-i 15-19 yaş hədlərində, 2,18%-i isə 65 yaşdan yuxarı olan işçiləri əhatə edir.

ƏMEİS-də bu ayın əvvəlinə aktiv əmək müqavilələrinin 37,7%-i ali təhsilli şəxslərlə, 37,3%-i ümumi təhsilli şəxslərlə, 22,2 %-i orta ixtisas təhsilli şəxslərlə, 2,8%-i isə ilk peşə-ixtisas təhsilli şəxslərlə bağlanıb. Əmək müqaviləsi bağlanılmış ümumi təhsilli şəxslərin 9707 nəfəri ibtidai təhsilli, 131.285 nəfəri orta təhsilli, 329.061 nəfəri isə tam orta təhsilli şəxslərdir. Təhsil pilləsi üzrə muzdla işləyən şəxslərin cinsə görə bölgüsündə ümumi təhsilli şəxslərin 60,9%-i kişilərin, 39,1%-i qadınların, ali təhsilli şəxslərin 52,2%-i kişilərin, 47,8%-i qadınların, orta ixtisas təhsilli şəxslərin 38,6%-i kişilərin, 61,4%-i qadınların, ilk peşə-ixtisas təhsilli şəxslərin 75,3%- i kişilərin, 24,7%-i qadınların payına düşür.

Qeyd edilib ki, ən çox əmək müqaviləsi təhsil, səhiyyə, sosial xidmətlər, tikinti, ticarət, emal sənayesi sahələri üzrə bağlanılıb. Kişilər üzrə ən çox əmək müqaviləsi bağlanan sahələr tikinti, emal sənayesi, təhsil, ticarət, qadınlar üzrə isə təhsil, səhiyyə, sosial xidmətlər, ticarət sahələridir. Təhsil, səhiyyə və sosial xidmətlər sahələrində muzdla işləyənlərin 76%-78%-i qadınlardır.

Nazir müavininin sözlərinə görə, ƏMEİS-də martın 1-dək olan göstəriciyə əsasən, 179.086 əmək müqaviləsinə xitam verilmişdir ki, bunun 130.306 ədədi kişilərin, 48.780 ədədi isə qadınların payına düşür: «Xitam verilmiş əmək müqavilələrinin 3191 ədədi işçilərin sayının və ya ştatlarının ixtisar edilməsi ilə bağlı olub. 1 oktyabr 2014-cü illə müqayisədə 22.754 işəgötürəndə aktiv əmək müqaviləsinin artımı, 6568 işəgötürəndə azalması qeydə alınıb, 2876 işəgötürəndə isə dəyişiklik olmayıb».

Sistemdə məşğulluq təsnifatı üzrə 7093 vəzifə üzrə əmək müqavilələrinin bağlanması qeydə alınıb. Ən çox əmək müqaviləsi bağlanılan vəzifələr müəllim, həkim, fəhlə, sürücü, xadimə, mühəndis, satıcı, operator və s., ən çox əmək müqaviləsi xitam verilən vəzifələr isə fəhlə, sürücü, satıcı, operator və s.-dir. Ən çox əmək müqaviləsinə xitam verilən sahələr tikinti, ticarət, emal sənayesi, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələri olub ki, bu da daha çox həmin sahələrdə əmək müqavilələrinin əsasən müddətli olması və işçilərin hərəkət tezliyinin yüksək olması ilə bağlıdır.

**AYTƏN**

# Nağd əməliyyat aparan bütün obyektlərdə POS-terminallar quraşdırılacaq

Azərbaycan Respublikası Prezidentinin ölkəmizdə nağdsız ödəniş sisteminin genişləndirilməsi ilə bağlı tapşırıqları uğurla icra olunmaqdadır. İqtisadi subyektlər arasında şəffaflığa nail olmaq, «gizli iqtisadiyyatın» həcmini azaltmaq, vergidən yayınma hallarının qarşısını almaq məqsədilə Vergilər Nazirliyi Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün müvafiq infrastrukturun qurulması istiqamətində ciddi tədbirlər həyata keçirir. Bu məsələ ilə bağlı nazirlikdə yaradılmış qərargah tərəfindən POS-terminal quraşdırılmalı olan obyektlərin siyahısı müəyyənləşdirilir, bu sahədə həyata keçiriləcək proseslərin xəritəsi tərtib olunur və banklarla razılaşdırılır. Qərargah üzvləri ilə yanaşı, yerli vergi orqanlarının bu işlərlə məşğul olacaq məsul şəxsləri müəyyən edilmiş, əlavə işçi qüvvəsi cəlb olunmuşdur.




Ötən il POS-terminalların sayının artması ilə yanaşı, onlardan istifadə də genişlənməyə başlamışdır. İndi Azərbaycan vətəndaşlarının böyük bir hissəsi daxili bazarda nağdsız ödənişlərə üstünlük verir.

Ölkəmizdə nağdsız ödəniş sisteminə keçidlə əlaqədar ödəniş kartlarının sayında da əhəmiyyətli dərəcədə artım olmuşdur və bu göstərici 6 milyon civarındadır. Ticarət obyektlərində və xidmət müəssisələrində POS-terminalların sayı da daim artmaqdadır. 2014-cü il ərzində 51 min POS-terminalın quraşdırılması təmin edilmiş və sayı 82 mini ötmüşdür. Onların 64,1%-i Bakı şəhərinin, 35,9%-i isə regionların payına düşür. Ötən il quraşdırılmış POS-terminalların sayında regionların payı daha çox olmuşdur: Bakı şəhəri üzrə POS-terminalların sayında 1,9 dəfə artım baş verdiyi halda, regionlarda bu artım 7,1 dəfə olmuşdur.

Bakıda keçiriləcək Avropa Oyunları zamanı ölkəmizə çoxlu sayda idman heyətləri və azarkeşlər gələcək. Buna görə də müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərdə nağdsız ödənişlərə üstünlük verənlərin sayının daha da artacağı gözlənilir. Bunu nəzərə alaraq, Vergilər Nazirliyi Avropa Oyunlarının keçiriləcəyi ərazilərdə POS-terminalların quraşdırılması və onlardan istifadə olunması məsələlərini ciddi nəzarətə götürmüşdür.

POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə maarifləndirmə işlərinə də böyük önəm verilir. Vergi ödəyicilərinə onlara məxsus obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi üçün Vergilər Nazirliyi tərəfindən «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» hazırlanmışdır. Ötən il bu tövsiyələrə uyğun olaraq 22500-dən çox şəxs fərdi şəkildə məlumatlandırılmışdır.

Əhali arasında aparılan maarifləndirmə işlərinin daha da genişləndirilməsi, POS-terminallardan istifadənin vətəndaşlar üçün iqtisadi cəhətdən daha sərfəli olması üçün konkret əməli tədbirlərin həyata kecirilməsi istiqamətində işlər gücləndirilmişdir. Nağd ödənişlərin həcminin azaldılması və nağdsız ödənişlərin stimullaşdırılması üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilməsi də istisna olunmur.

**Rəşad SADIQOV**

# Bələdiyyələr metodiki vəsaitlərlə təmin olunur

Vergilər Nazirliyi yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun, habelə bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin uçotunun elektron qaydada aparılmasının təmin edilməsi məqsədilə metodiki vəsaitlər təsdiq olunub. Nazirliyin aidiyyəti struktur vahid və bölmələrinə 2014-cü il ildə Bakı şəhərinin

*Hazırda vergi ödəyicilərinin İnternet Bələdiyyə İdarəsinə daxil olmaq üçün bələdiyyələrdən şifrə və parol almaqla, «ASAN imza» və «Mobil imza»dan istifadə etməklə elektron xidmətlərdən tam yararlanmaq imkanı var*

Binəqədi, Abşeron rayonunun Saray və Şəmkir rayonunun Şəmkir bələdiyyələrində yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin və ödənişlərin uçotunun tətbiqi üzrə pilot layihənin həyata keçirilməsi tapşırılıb. Artıq adları çəkilən bələdiyyələrdə, eləcə də layihəyə öz istəyi ilə qoşulan Sumqayıt şəhərinin Sumqayıt və Bakı şəhərinin Sabunçu rayonu Bakıxanov bələdiyyələrində vergi və ödənişlərin uçotunun tətbiqi üzrə pilot layihə sınaqdan keçirilib.

Bu istiqamətdə tədbirlərin tərkib hissəsi kimi «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması ilə bağlı Metodiki Vəsait» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki Vəsait» «Bələdiyyələrin vergi sistemi» adlı kitab şəklində çap olunaraq pilot layihə həyata keçirilən bələdiyyələrə çatdırılıb.

Vergilər Nazirliyinin sifarişi əsasında bələdiyyə vergi və ödənişlərinin hesablanması, ödənilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə uçotun elektron qaydada aparılması məqsədilə 5 altsistemdən (bəyannamə, iş qovluğu, kargüzarlıq, şəxsi hesab vərəqəsi, uçot) ibarət «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanaraq bələdiyyələrdə quraşdırılıb. Bununla yanaşı, proqram təminatının istifadə qaydalarını əks etdirən istifadəçi təlimatı, bələdiyyə vergisi üzrə ödəyicilərin istifadəsi üçün «İnternet Bələdiyyə İdarəsi» (www.e-belediyye.gov.az) yaradılıb. Hazırda vergi ödəyicilərinin İnternet Bələdiyyə İdarəsinə daxil olmaq üçün bələdiyyələrdən şifrə və parol almaqla, «ASAN imza» və «Mobil imza»dan istifadə etməklə elektron xidmətlərdən tam yararlanmaq imkanı var. Həmin xidmətlərə bələdiyyə vergisi ödəyicilərinin torpaq və əmlakının onlayn qeydiyyata alınması, yenidən qeydiyyatı və qeydiyyatdan çıxarılması, şəxsi hesab vərəqəsinə baxış, hesablanmış vergilərə dair bildirişlərin əldə edilməsi, vergi ödəyicilərinin qeydiyyatda olduğu bələdiyyəyə onlayn müraciəti və s. daxildir.

İndiyədək bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin, onların əmlakının və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, fiziki şəxslərin əmlak və torpaq vergilərinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisinin və yerli ödənişlərin hesablanması, ödənilməsi və uçota alınması qaydaları barədə müvafiq məlumatlandırma və təbliğat işlərinin həyata keçirilməsi və KİV-də işıqlandırılması istiqamətində xeyli işlər görülüb.

**ELBRUS**

# Daxili internet şəbəkəsi yaradılır

İnformasiya və kommunikasiya texnologiyaları (İKT) bazarında azad rəqabət mühitinin formalaşdırılmasına xidmət edən islahatların, o cümlədən səmərəli özəlləşdirmə və tənzimləmənin həyata keçirilməsi ölkədə yeni sabit və mobil rabitə operatorlarının, İKT məhsul və xidmət istehsalçılarının yaranmasına və onların bölgənin İKT bazarının fəal iştirakçılarına çevrilməsinə səbəb olmuşdur.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən verilən məlumata görə, 2013-cü illə müqayisədə keçən il beynəlxalq internet kanallarının tutumu 50 Gbit/s artırılaraq 300 Gb/s-ə çatdırılıb və bu, ölkədə əhalinin internet xidmətlərindən istifadəsinin artmasının göstəricisidir. Qeyd edək ki, hazırda ölkə əhalisinin 73%-i internet, 55%-i isə genişzolaqlı xidmət istifadəçisidir. Hər iki göstərici üzrə Azərbaycan dünya orta göstəricisini təqribən 2 dəfə qabaqlayır. Həmçinin 2014-cü il ərzində dünya ölkələrindən Azərbaycana daxil olan beynəlxalq giriş trafikinin həcmi 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 119 mln. dəqiqə azalaraq 399,7 mln. dəqiqə, çıxış trafikinin həcmi isə 30 mln. dəqiqə azalaraq 127,6 mln. dəqiqə təşkil edib.



Nazirliyin Məlumat Hesablama Mərkəzinin (MHM) direktoru Nail Mərdanovun sözlərinə görə, bu gün Azərbaycanda ümumilikdə 30-dan çox internet təchizatçısı fəaliyyətdədir: «Əsrin əvvələrində ölkəmizdə internetdən istifadənin həcmini təhlil etsək, görərik ki, o vaxt şəbəkədən sadəcə məlumat əldə etmək və e-poçt mübadiləsi üçün istifadə olunurdu, «az» domeninin zəif inkişafı, elektron xidmətlərin və e-ticarətin bütünlükdə olmaması, gərəkli yerli istifadəçilərin minimum səviyyədə olması lokal trafik həcmini artırmağa imkan vermirdi. İnternet istifadəçiləri, əsasən, xarici resurslardan yararlandıqlarından dəyəri baha olan beynəlxalq çıxış kanalı giriş və lokal kanala nisbətən dəfələrlə çox yüklənmiş vəziyyətdə idi. Son zamanlar isə vəziyyət kökündən dəyişməyə başlamışdır, internetdən istifadə daha geniş sahələrə, sosial xidmətlərə tətbiq olunur. «Elektron hökumət» portalının yaranması və bu portal üzərindən dövlət qurumlarının vətəndaşlara 400-dən artıq elektron xidmət təklif etməsi, xidmətlərin sayının gündən-günə artması, «e-ödəniş», «e-ticarət», «e-satınalma» portallarının yaradılması milli domenin inkişafına güclü təkan vermiş, ölkəmizdə internet trafikinin həcmi dəfələrlə artmışdır. Bu trafikin böyük hissəsini lokal trafik təşkil edir. Artıq bu gün də daxilə hesablanmış trafikin həcminin xeyli artması qlobal kanalı məşğul edir, «e-hökumət» portalına qoşulmada müəyyən problemlər yaradır».

Qlobal internet şəbəkəsindən maksimum səmərəli istifadəni tənzimləmək, bununla internet təchizatçılarının beynəlxalq kanallarının 35-40%-ə qədər əlavə yüklənməsinin qarşısını almaq, yerli internet resurslarından istifadə zamanı sürəti tənzimləyərək gecikmələri minimuma endirmək üçün, eləcə də daxili internet resurslarının təhlükəsizliyini nəzərə alaraq, MHM «Azdatakom» şəbəkəsinin texniki rezurslarını hazırda ölkəmizdə fəaliyyət göstərən 30-dan çox internet təchizatçısına təqdim edərək daxili internet şəbəkəsi yaratmağı təklif etmişdir. N.Mərdanov bildirib ki, ilk vaxtlar internet təchizatçıları arasında 1 Gb/saniyə sürətli kanalın yaradılması nəzərdə tutulur. Trafikin həcmi artdıqca kanalın sürətinin artacağı da istisna deyil.

**Fəxriyyə İKRAMQIZI**

# Ünvanlı sosial yardım sistemi təkmilləşdirilir

*Aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı ilə təminatı 2006-cı il yanvarın 1-dən qüvvəyə minmiş və iyulun 1-dən fəaliyyətə başlamış «Ünvanlı dövlət sosial yardımı haqqında» Qanuna əsasən həyata keçirilir.*

Ölkəmizdə sosial rifahın yüksəlməsi və sosial yardımların təyinatında ünvanlılıq və şəffaflıq prinsiplərinə əməl olunmasına nəzarətin gücləndirilməsi ünvanlı dövlət sosial yardımı təyin olunanların sayının tədricən azalmasına səbəb olub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) verilən məlumata əsasən, ötən ilin yanvar ayı ilə müqayisədə bu ilin yanvar ayında respublikada ünvanlı yardım alan ailələrin sayı 38 min 675 (168 min 673 nəfər ailə üzvü), yəni 26,4% azalaraq 107 min 761 ailə (470 min 237 nəfər ailə üzvü) təşkil edib. Bu azalma, digər tərəfdən, ünvanlı sosial yardımların bir ailəyə düşən orta aylıq məbləğinin 10,3% artaraq 138,89 manata, adambaşına düşən orta aylıq məbləğinin isə 10,3% artaraq 31,83 manata yüksəlməsi ilə müşayiət olunub.

Ünvanlı sosial yardımların təyinatı prosesində məmur-vətəndaş təmaslarının minimuma endirilməsi üçün bu sahənin tam avtomatlaşdırılması ƏƏSMN-in islahat tədbirlərinin mühüm istiqamətlərindən biridir. Bununla əlaqədar qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə ünvanlı dövlət sosial yardımı üçün müraciətlərin elektron qaydada qəbulunu və yardımların avtomatik şəraitdə təyinatını nəzərdə tutan sistem formalaşdırılır.

Sosial təminat sahəsində sürətli, rahat və şəffaf xidmətlərdən istifadə imkanının yaradılması, dövlət orqanlarının fəaliyyətinin innovativ texnologiyaların tətbiqi ilə qabaqcıl dünya təcrübəsinə uyğun təşkil edilməsi və bu əsasda aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 fevral 2015-ci il tarixli fərmanına əsasən, ƏƏSMN-in mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə vahid elektron müraciət və təyinat altsistemi (VEMTAS) yaradılacaq. Bu sistemin işə salınması üçün nazirlik beş ay müddətində vətəndaşlara fərdi kommunikasiya vasitələrindən - kompüterlərdən, mobil telefonlardan və s., habelə bu məqsədlər üçün xüsusi olaraq quraşdırılmış infoköşklərdən istifadə etməklə ünvanlı dövlət sosial yardımı ilə bağlı elektron formada müraciət etmək imkanı yaradacaq. Zəruri texniki imkanlara, xüsusi proqram təminatına malik həmin infoköşklər bütün rayon və şəhərlərin poçt şöbələrində quraşdırılacaq və «Elektron hökumət» portalına qoşulacaq. Vətəndaşlar yerli poçt şöbələri tərəfindən onlara pulsuz verilən və yalnız bu elektron xidmət növü üçün istifadə oluna bilən elektron imzalar vasitəsilə infoköşklərdən ünvanlı yardım almaq üçün müraciət edə biləcəklər.

## *Ünvanlı dövlət sosial yardımı üzrə vahid e-müraciət və təyinat altsistemi yaradılacaq*

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov fərmanın icrası ilə əlaqədar keçirilən mətbuat konfransında bildirib ki, vətəndaşların infoköşklərdən etdikləri elektron müraciətlər VEMTAS vasitəsilə qəbul ediləcək. Müraciətlər əsasında vətəndaşların ünvanlı yardım almaq hüququna baxılması üçün lazım olan arayış və məlumatlar artıq onlardan istənilməyəcək, müvafiq dövlət qurumlarından elektron formada əldə olunacaq. Çünki fərmana əsasən, dövlət orqanları tələb olunan arayış və məlumatlar üzrə informasiya resurslarını «Elektron hökumət» portalına qoşulan informasiya sistemlərində və ehtiyatlarında yerləşdirəcəklər. ƏƏSMN-ə isə «Elektron hökumət» portalı vasitəsilə müraciət edən şəxslər və onların ailə üzvləri barədə məlumatları əldə etmək üçün həmin informasiya resurslarından istifadə imkanı yaradılacaq.

Nazir bildirib ki, vətəndaşların müraciətləri elektron qaydada qəbul olunduqdan sonra əhalinin sosial müdafiəsi mərkəzləri onlara verilən tapşırıq əsasında müraciət edən insanların ailələrinin maddi-məişət şəraitinin müayinəsini aparacaqlar. Müayinə müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi avadanlıqlar vasitəsilə həyata keçiriləcək və nəticələrin real vaxt rejimində VEMTAS-a ötürülməsi təmin ediləcək. Əldə olunan bütün məlumatlar ümumiləşdirildikdən sonra müraciət edən ailəyə yardım təyin olunub-olunmaması barədə qərar qəbul olunacaq və bu barədə vətəndaşa elektron qaydada məlumat veriləcək. Yəni bu məlumat fərdi kommunikasiya vasitələri (kompüter, mobil telefon və s.) olduğu halda, vətəndaşın elektron ünvanına ismarıc formasında çatdırılacaq. Fərdi kommunikasiya vasitələrindən istifadə etməyənlər isə bu məlumatla infoköşklərdə tanış ola biləcəklər.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

MART

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 17 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

27 mart – «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

31 mart – «1», «2», «5» və «7».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**Əvvəli ötən sayımızda**

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizin davamı olaraq, 112№-li hesaba dair ikili yazılışları təqdim edirik. Göstərilən nümunələr şərti və öyrətmə xarakter daşıyır.

**Misal.** Müəssisə 2010-ci ilin yanvar ayında faydalı istismar müddəti 5 il və son qalıq dəyəri 800 manat müəyyənləşdirilməklə 5000 manat dəyərində generator avadanlığı almışdır. Sahibkar tərəfindən avadanlığa azalan qalıq metodu ilə illik 20% amortizasiya dərəcəsi tətbiq olunması və sonda avadanlığın satılması qərarı verilmişdir. 5 il müddətində veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

Əvvəlcə 5 il ərzində illər üzrə hesablanmalı olan (mühasibat uçotu məqsədləri üçün) amortizasiya dəyərini müəyyənləşdirək. Bunun üçün aşağıdakı formada hesablama cədvəli tərtib etmək olar:

| Dövr | İllik % dərəcəsi | İlkin dəyər | Amortizasiya tətbiq olunan dəyər | İllik amortizasiya dəyəri | Yığılmış amortizasiya dəyəri | Balans (qalıq) dəyəri |
|---|---|---|---|---|---|---|
| 2010-cu il | 20% | 5000 | 4200 | 840 | 840 | 4160 |
| 2011-ci il | 20% | 5000 | 3360 | 672 | 1512 | 3480 |
| 2012-ci il | 20% | 5000 | 2688 | 538 | 2050 | 2950 |
| 2013-cü il | 20% | 5000 | 2150 | 430 | 2480 | 2520 |
| 2014-cü il | x | 5000 | 1720 | 1720 | 4200 | 800 |

İkili yazılışlar isə aşağıdakı kimi olacaqdır:

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 31.12.2014 | 202, İstehsal məsrəfləri | 5 il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | 4200 | |
| 31.12.2014 | 112, Torpaq, tikili və avadanlıqar – amortizasiya dəyəri | 5 il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq istehsal məqsədlidirsə). | | 4200 |
| 31.12.2014 | 721, İnzibati xərclər | 5 il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq inzibati məqsədlidirsə). | 4200 | |
| 31.12.2014 | 112, Torpaq, tikili və avadanlıqar – amortizasiya dəyəri | 5 il ərzində hesablanmış amortizasiya dəyəri uçota alınır (əgər avadanlıq inzibati məqsədlidirsə). | | 4200 |
| 31.12.2014 | 112, Torpaq, tikili və avadanlıqar – amortizasiya dəyəri | Avadanlıq üzərində satış qərarı verildiyindən onun yığılmış amortizasiya dəyəri ilkin dəyəri ilə zaçot edilir | 4200 | |
| 31.12.2014 | 111, Torpaq, tikili və avadanlıqar – ilkin dəyər | Avadanlıq üzərində satış qərarı verildiyindən onun yığılmış amortizasiya dəyəri ilkin dəyəri ilə zaçot edilir | | 4200 |
| 31.12.2014 | 206, Satış üçün digər aktivlər | Satılması qərarı verilən (konservasiya edilərək istismardan ayrılan) avadanlıq qısamüddətli ehtiyat kimi uçota alınır | 800 | |
| 31.12.2014 | 111, Torpaq, tikili və avadanlıqar – ilkin dəyər | Satılması qərarı verilən (konservasiya edilərək istismardan ayrılan) avadanlıq qısamüddətli ehtiyat kimi uçota alınır | | 800 |

Avadanlıq mühasibat uçotunda qısamüddətli aktiv (ehtiyat) kimi uçota alınması ilə bərabər vergi uçotunda da əsas vəsait statusundan çıxarılmalıdır. Çünki bu avadanlıq əvvəlcədən vergi uçotunda amortizasiya olunan aktiv kimi nəzərə alınmış və sonradan konservasiya olunduğuna və istismardan ayrıldığına görə «konservasiya edilmiş əsas vəsaitlər» (VM, maddə 114.2.7) statusu almışdır. Həmin avadanlıq sonradan satıldığı anda mühasibat uçotunda qısamüddətli aktivin (ehtiyatın) təqdim olunması kimi, vergi uçotunda isə amortizasiya olunan aktivin təqdim olunması kimi deyil, amortizasiya olunmayan aktivlərin təqdim olunması kimi nəzərə alınmalıdır. Bir məsələni qeyd etmək lazımdır ki, avadanlığın konservasiyası həmin avadanlığın ləğv edilməsi anlamına gəlməməlidir. Digər tərəfdən də fərqli amortizasiya yanaşmalarını nəzərə alsaq, ayrı-ayrı illər üzrə amortizasiya dəyərləri ilə bağlı vergi uçotu ilə mühasibat uçotu arasındakı müvəqqəti fərqlər də nəzərə alınmalıdır.

Fərz edək ki, həmin avadanlıq 20.02.2015-ci il tarixdə 1000 manata satılmışdır. Bu əməliyyata aşağıdakı ikili yazılışlar veriləcəkdir:

| | | | | |
|---|---|---|---|---|
| 20.02.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Satılması qərarı verilən konservasiya edilmiş avadanlığın satış dəyəri uçota alınır | 1000 | |
| 20.02.2015 | 611, Sair əməliyyat gəlirləri | Satılması qərarı verilən konservasiya edilmiş avadanlığın satış dəyəri uçota alınır | | 1000 |
| 20.02.2015 | 731, Sair əməliyyat xərcləri | Satılması qərarı verilən konservasiya edilmiş avadanlığın uçota alınan dəyəri silinir | 800 | |
| 20.02.2015 | 206, Satış üçün digər aktivlər | Satılması qərarı verilən konservasiya edilmiş avadanlığın uçota alınan dəyəri silinir | | 800 |

# İstehsalat obyektlərinin tikintisinə hazırlıq görülür

Balaxanı Sənaye Parkının yaradılması üçün ayrılmış 7 hektar sahədə hasarlanma, zəruri torpaq işləri başa çatıb və ərazi abadlıq, quruculuq, tikinti işləri üçün hazır vəziyyətə gətirilib. Sənaye parkında elektrik enerjisinin çəkilişi üzrə layihələndirmə işləri yekunlaşıb və yaxın gələcəkdə inşasına başlanılacaq. Parka qaz, su xətləri çəkilib. Yaxın zamanda istehsalat obyektlərinin tikintisinə başlanılacağı gözlənilir.

İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) məlumatına görə, Sənaye Parkında 3 rezident qeydiyyata alınıb. «Az.Ekol» MMC butulkaların təkrar emalı sahəsində fəaliyyət göstərəcək. «Ekokat» MMC işlənmiş mühərrik yağlarının təkrar emalı ilə məşğul olacaq. «Eco Tire» MMC isə Bakı şəhəri və regionlarda yük avtomobillərinin, avtobusların, xüsusi təyinatlı avtomobillərin, qoşqular və yarımqoşquların təkərlərini soyuq üsulla bərpa edəcək.

İSN sözügedən sənaye zonasına investorların cəlb olunması ilə bağlı digər rezidentlərlə danışıqların davam etdirildiyini də bildirib. Rezidentlər qeydiyyata alındıqdan sonra 7 il müddətinə mənfəət vergisindən (fərdi sahibkarlar isə gəlir vergisindən), torpaq vergisindən, əmlak vergisindən azad ediləcək, sənaye parkında istehsal sahəsinin qurulması və istehsal məqsədi ilə idxal edilən texnika, texnoloji avadanlıq və qurğulara görə ƏDV ödəməyəcəklər. Qeyd olunduğuna görə, Balaxanı Sənaye Parkı ərazisində mexaniki emal və istehsal qurğuları üçün bütün şərait və lazımi dəstək hökumət tərəfindən təmin ediləcək. Sənaye Parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı və əldə edilmiş xam material və ya istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına əlverişli imkan yaratmış olacaq. Burada ofis, konsaltinq, laborator müayinə, biznes inkubasiya, treninq, peşə hazırlığı və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün zəruri tədbirlər görülür.

# Sahibkarlara güzəştli kreditlər verilib

İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) icraçı direktoru Şirzad Abdullayev bildirib ki, bu il ərzində 842 sahibkara 27,6 mln. manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 2000-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir.

Ümumilikdə, indiyədək Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 9766 investisiya layihəsinin maliyyələşdirilməsinə 415,5 mln. manat güzəştli kredit verilib, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistik mərkəzlərin, quşçuluq fabriklərinin, cins iribuynuzlu heyvandarlıq komplekslərinin, çörək zavodlarının, meyvə-tərəvəz, ət, süd emalı, quru meyvə, tikinti materiallarının istehsalı müəssisələrinin, iri fermer, üzümçülük təsərrüfatlarının yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 33.400-dən çox yeni iş yerinin açılması imkanı yaradılmışdır.

beynəlxalq panoram

# Fransada tədqiqatçılara vergi güzəştləri

*«Microsoft»dan «Huawei»yə kimi bir çox texnoloji şirkətlər bu güzəştlərdən istifadə edir. Fransada tədqiqat qrupları üçün vergi güzəştlərinin həcmi ötən il 7 mlrd. dollar təşkil edib.*



Bu qaydalar ilkin olaraq 1980-ci ildə tətbiq edilsə də, Nikola Sarkozinin prezidentliyi dövründə daha da genişləndirilib. Təkcə 2014-cü ildə 17 mindən çox şirkət bu güzəştlərdən istifadə edib, güzəştlərin orta məbləği isə 323,5 min avro təşkil edib.

«Vergi güzəştləri tədqiqatçılar üçün həlledicidir və bu, Fransanı iqtisadi baxımdan daha cəlbedici edir», - «Gemalto» şirkətinin rəhbəri Olivye Piy bildirib. Onun sözlərinə görə, vergi güzəştləri şirkətlər üçün çox vacibdir və bu güzəştlər dünyadakı tədqiqatçıların təxminən 30%-ni Fransada işləməyə stimullaşdırır.

Fransa vergi qanunvericiliyi ölkədə şirkətlərin elmi-tədqiqat bölmələrinin yerləşdirilməsinə yardım edir. Fransada korporativ vergi 33,3% təşkil edir. Müqayisə üçün: korporativ mənfəət vergisinin dərəcəsi aşağı olan İrlandiyada bu göstərici 12,5%-dir. ABŞ-ın «Microsoft» korporasiyası Fransanın INRIA (İnformatika və Avtomatlaşdırmada Dövlət Araşdırmalar İnstitutu) ilə əməkdaşlıq edir. Şirkətin 100-dək əməkdaşı burada çalışır. Çinin «Huawei» şirkəti 2017-ci ildə özünün 200-ə yaxın tədqiqatçısını Sofiya-Antipolis texnologiyalar parkında yerləşdirməyə hazırlaşır. Şirkət yaxın beş ildə Fransada elmi-tədqiqat müəssisələrinin inkişafına 1,9 mlrd. dollar xərcləməyi planlaşdırır. «Vergi şəraiti bizim üçün əsas amil deyil, lakin əlbəttə ki, bu, Fransanın digər ölkələr qarşısında üstünlüyüdür. Əgər müxtəlif amillərin əhəmiyyətindən danışsaq, o zaman tədqiqatçıların peşəkar səviyyəsi və ekosistem bizim üçün daha vacibdir, bunlardan sonra isə vergi güzəştləri gəlir», - «Huawei»nin nümayəndəsi bildirib.

# Qazaxıstan neft ixracı üzrə rüsumu azaldacaq

Hökumət bir ton neftin ixrac gömrük rüsumunu 80 dollardan 60 dollaradək azaldacaq. Qazaxıstanın milli iqtisadiyyat naziri bildirib ki, neftin ixrac gömrük rüsumu büdcə ilə birlikdə azaldılacaq. Hesablamalara görə, parlament büdcəni qəbul etdikdə bir ton üçün azalma 60 dollaradək olacaq.

Energetika nazirinin bildirdiyi kimi, cari ilin birinci rübünün sonunadək hökumət hasilat müəssisələri üçün vergiləri optimallaşdıracaq.

Qazaxıstanda neftin bir tonunun ixrac gömrük rüsumunun dərəcəsi 80 dollar təşkil edir. Respublika üzrə neft hasilatının maya dəyəri bir barel üçün orta hesabla 50 dollar təşkil edir.

# ABŞ «Deutsche Bank»ı vergi fırıldaqçılığında ittiham edib

Amerika Birləşmiş Ştatları hökuməti Manhetten federal məhkəməsində «Deutsche Bank»a qarşı iddia qaldırıb. Kredit təşkilatı vergidən yayınmaq üçün saxta şirkətlərdən istifadə etməkdə günahlandırılır. Hökumət bankdan vergi, cərimə və faizlər şəklində 190 mln. dollar almağa ümid edir. ABŞ-ın maliyyə orqanlarının məlumatına görə, vergi ödəmələrindən yayınmaq üçün «Deutsche Bank» üç saxta şirkət təsis etmiş kompaniya ilə saziş bağlayıb. Bu şirkətlər vergi ödənişləri üçün maliyyə çatışmazlığını nümayiş etdirmək məqsədilə bilərəkdən maliyyələşdirilməyiblər.



İrəli sürülmüş ittihamları təəccüblə qarşılayan «Deutsche Bank» bəyan edib ki, bu işlə bağlı bütün məsələlər ABŞ vergi xidməti ilə hələ 2009-cu ildə həll olunub. Alman bankı öz mövqeyini fəal müdafiə etmək niyyətində olduğunu bildirib.

Xarici ölkələrin təcrübəsi

# Slovakiya Respublikası: *mənfəət vergisi*

Slovakiyada 2014-cü ildən əldə olunan mənfəətə münasibətdə vahid vergitutma sistemi tətbiq olunur, yəni mənfəət tam həcmdə müəssisə səviyyəsində vergiyə cəlb olunduqdan sonra xalis mənfəətin bölüşdürülməsi müəssisə və ya fərdi səhmdarlar səviyyəsində bir daha vergiyə cəlb olunmur. Mənfəət vergisi hüquqi şəxslərdən, xüsusilə də birgə səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətləri və kooperativ müəssisələrdən tutulur.

**Rezidentlik:** Hüquqi ünvanı və ya effektiv idarəetmə yeri Slovakiya Respublikasında yerləşən müəssisə rezident hesab edilir. Rezident müəssisələr dünya üzrə əldə etdikləri gəlirləri üzrə vergiyə cəlb olunurlar. Xüsusi qaydaların tətbiq edildiyi hallar istisna olmaqla, fəaliyyətin bütün növlərindən və ya əmlakın satışından əldə edilən gəlirlər mənfəət vergisinə cəlb olunur. Vergi tutulan gəlir balans mənfəəti əsasında hesablanır və qanunvericiliyə uyğunlaşdırılır. Mühasibat işlərini ikili yazılış əsasında aparan vergi ödəyicilərinin vergi tutulan gəlirləri hesablama metodu; kassa metodu əsasında aparanların gəlirləri isə kassa metodu üzrə hesablanır.

Vergidən azad olunan gəlirə aşağıdakılar daxildir:

- müəssisə tərəfindən 1 yanvar 2004-cü il tarixdə və ya ondan sonra əldə olunmuş mənfəətin bölüşdürülməsi nəticəsində ödənilən dividendlər;
- nizamnamə kapitalının azalması nəticəsində öz səhmlərinin nominal dəyərindən aşağı qiymətə əldə olunmasından yaranan gəlir;
- müflisləşmə proseduru çərçivəsində əmlakın satılmasından gəlir və qazanc;
- peşəkar palatalar, siyasi partiyalar və hüquqi şəxslərin assosiasiyalarının üzvlük haqları;
- vergi orqanının səhvi nəticəsində artıq ödənilmiş vergilər üzrə faizlər;
- beynəlxalq sazişlər əsasında əldə olunmuş qrant vəsaitləri;
- vergi məqsədləri üçün gəlirdən çıxılmayan xərclərlə birbaşa bağlı olan mənfəət.

Ümumi qayda olaraq vergiyə cəlb edilən gəlirin əldə olunması, təmin edilməsi və saxlanmasına çəkilən xərclər tam şəkildə gəlirdən çıxılır. Gəlirdən çıxılmalara aşağıdakılar daxildir:

- amortizasiya ayırmaları, satılmış və ya ləğv edilmiş amortizasiya oluna bilən aktivlərin qalıq dəyəri;
- iş səfərləri ilə bağlı səyahət xərclərinin müəyyən həddi;
- avtomobilin texniki xarakteristikasına uyğun olaraq sahibkarlıq məqsədləri üçün sərf edilən yanacağın dəyərinin 80%-i;
- işəgötürən tərəfindən ödənilən əməkhaqqı və sosial sığorta ayırmaları;
- işçinin xeyrinə ödənilmiş tibbi və sosial xərclər (müəyyən hədlər daxilində), sığorta ödəmələri, icarə haqları;

**Slovakiyada müəssisələrin ödədikləri vergilər və sosial sığorta ödənişlərinin məbləğləri (2005-2012-ci illər, mln. ABŞ dolları)**




- müəssisənin özünün və ya istehsal etdiyi malların, xidmətlərin, ticarət markasının reklamı ilə bağlı olan xərcləri;
- vergiyə cəlb olunmayan gəlirlə bağlı xərclər;
- əsas vəsaitlərin əldə olunması xərcləri;
- səhmlərin əldə olunması xərcləri və müəssisənin nizamnamə kapitalına ayırmalar;
- əyləncə və şəxsi xərclər;
- mənfəət bölüşdürmələri (dividendlər, faizlər);
- bələdiyyə vergiləri (torpaq, əmlak, avtomobil vergisi) və digər ödənişlər, müəyyən cərimələr və digər cəzalar;
- xüsusi hallarda saziş bağlanmayan ölkənin rezidentlərinə ödəmələr (1 mart 2014-cü ildən);
- mənfəət vergisi.

**Dərəcələr:** 2014-cü il yanvarın 1-dən mənfəət vergisi 22% dərəcə ilə tutulur. 2013-cü ildə əldə olunan gəlirlər həmin il qüvvədə olmuş 23% dərəcə ilə vergiyə cəlb edilir.

2014-cü il yanvarın 1-dən rezident müəssisələr zərərlə işlədikləri halda minimum mənfəət vergisinə cəlb olunurlar. Minimum vergi 480 - 2880 avro arasında dəyişir. Müəyyən azadolmalar tətbiq oluna bilər.

**Güzəştlər:** Mənfəət vergisindən güzəştlər «İnvestisiya güzəştləri haqqında» qanuna və müəyyən hallarda «Tədqiqat və inkişafın təşviqi haqqında» qanuna əsasən, qanunvericilikdə müəyyən edilmiş şərtlərin yerinə yetirilməsi və iqtisadiyyat və ya maliyyə nazirliyinin təsdiqi əsasında edilir.

**Vergi dövrü:** Vergi dövrü təqvim ili və ya vergi ödəyicisinin biznes/maliyyə ili hesab olunur (vergi orqanına bildiriş verilir).

***Vergi bəyannamələrinin təqdim edilmə müddəti və vergilərin hesablanması:*** İllik vergi bəyannamələri növbəti ilin ilk 3 ayı müddətində təqdim edilməlidir. Vergi ödəyicisinin bildirişi əsasında bəyannamələrin təqdim edilməsi növbəti 3 aylıq müddətə uzadıla bilər. Müddətin uzadılması yalnız vergi ödəyicisinin xarici mənbələrdən gəliri olduqda mümkündür. Vergi ödəyicisi ödəməli olduğu vergini hesablayaraq bəyannamədə göstərməlidir.

***Verginin ödənilmə müddəti:*** Məlum olan son vergi məbləği 2500 avro və ondan aşağı olan vergi ödəyiciləri istisna olmaqla, digər bütün vergi ödəyiciləri cari ödənişlər etməlidirlər. Ötənilki vergi öhdəliklərinin məbləğindən asılı olaraq, vergi ödəyiciləri cari ödənişləri rüblük və ya aylıq əsasda edirlər. Cari ödəmələr ötən ilin vergi öhdəlikləri əsasında, cari ödəmə öhdəliyinin yarandığı vergi dövründə mövcud olan vergi dərəcəsi tətbiq edilməklə hesablanır. Vergi ili ərzində yaranmış müəssisə (yenidən təşkil olunmuş, birləşmiş və ya bölünmüş şirkətlər istisna olmaqla) cari vergi ödənişi etməyə məcbur deyildir.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.İki üzü bərabər və uyğun tərəfləri paralel çoxbucaqlı, qalan üzləri paraleloqram olan çoxüzlü (cisim); 2.Nazik bağırsağın iltihabı; 3.Yerin dərin qatlarında yüksək temperatur və təzyiq şəraitində əmələ gələn mürəkkəb tərkibli od kütləsi; 4.Şərqi Afrikada dənizə çıxışı olmayan ölkə; 5.Tatarıstan Respublikasından keçən çay; 6.Sovet televizor markası; 9.Ədəbi dil üçün qəbul edilmiş vahid və düzgün yazı sistemi; 13. Gülçiçəyikimilər fəsiləsinin qavalı cinsinə aid bitki növü; 15.Dörd dövlətin ərazisində Pollesk aranlığında yerləşən mədəni-tarixi və fiziki-coğrafi vilayət; 16.Xalq artisti, «Ögey ana» filmində baş rollardan birini oynamış aktrisanın adı; 17.Böyük Britaniyada şəhər; 18.Müntəzəm olaraq uzaq səfərlərə çıxan iri və sürətli nəqliyyat gəmisi; 20.Şərqi və Cənubi Asiyanın bəzi ölkələrində, həmçinin Cənubi Afrikada kiçik ikitəkərli arabaya qoşulub minik və yük aparan adam; 21.Üst paltar üçün naxışlı yun parça.

**Soldan sağa:** 1.Hər hansı bir qanunun, qərarın giriş hissəsi; 5.Ayaq üstə yemək yeyilən, və ya içki içilən kiçik yeməkxana, qəlyanaltıxana; 7.Azərbaycan Respublikasının dövlət təltiflərindən biri (orden); 8.Reaktiv atəş sistemi (silah); 10.Poçt ödəniş nişanı. Həmçinin bir sıra ölkələrdə pul vahidi; 11.Xarici bazarlarda rəqibləri aradan çıxarmaq məqsədilə malların maya qiymətindən və daxili bazardakından daha ucuz satılması; 12.Hamar, parlaq ipək parça; 14.Müxtəlif növ və quruluşlu, işıq verən cihaz; 19.Qanıx çayının sol qolu. Oğuz, Şəki və Qax rayonları ərazisindən axır; 21.Dalğalı şəklində bir neçə mətbə nişanının adı; 22.RF-nin Tambov vilayətində çay; 23.İngilis komediya aktyoru və yazıçısının soyadı. Daha çox «Cənab Bin» adlı komediya serialında oynadığı rola görə tanınır; 24.Ən yüksək, ən yaxşı, ən gözəl; 25.Klinometr - Yer səthinin mailliyini ölçən cihaz. Son vaxtlar avtomobillərdə daha çox istifadə olunur.



*İngilis komediya aktyoru və yazıçısının soyadı. Daha çox «Cənab Bin» adlı komediya serialında oynadığı rola görə tanınır.*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Dikson; 2.Kantata; 3.Omaha; 4.Alqama; 5.Velür; 6.Toğrul *(Nərimanbəyov)*; 9.Ahva; 13.Emki; 15.Vilayət; 16.Freska; 17.Ənzəli; 18.Nitrat; 20.Bahar; 21.Serer. **Soldan sağa:** 1.Doktorant; 5.Vit; 7.Kontanqo; 8.Alığ; 10.Osaka; 11.Maharlu; 12.Vazeh *(Mirzə Şəfi)*; 14.Halva; 19.Rubikon; 21.Selfi; 22.Səhm; 23.Şəhriyar; 24.Akr; 25.Prioritet.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Velosipedçilərimiz uğurlu çıxışlarını davam etdirirlər

*Litvanın Panevejis şəhərində velosiped idmanının trek növü üzrə Beynəlxalq Velosipedçilər İttifaqının 1-ci kateqoriyalı «Panevejis-2015» turniri başa çatıb. Yarışda Azərbaycan yığma komandasının 2 üzvü - Olqa İsmayılova və Nicat Niftəliyev də mübarizə aparıb.*




İlk yarış günü Azərbaycan komandası üçün uğurlu olub. 500 metr məsafəyə sprint növündə mübarizə aparan Olqa İsmayılova bütün rəqiblərindən üstün olmaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, final yürüşündə rusiyalı Yelena Brejnevanı qabaqlayıb və sürətini 51.45 kilometr/saata çatdırmaqla finişi 34,985 saniyəyə keçib.

Xorvatiyada isə Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 1.2 kateqoriyalı «Porec Trophy» yürüşü keçirilib. Yarışda Azərbaycanın kontinental velosiped komandası - «Synergy Baku» da mübarizə aparıb.

Birgünlük yarışda iştirakçılar 143 km məsafə qət ediblər. Qeyd edək ki, ötənilki «Porec Trophy» turnirinin qalibi, Azərbaycanın Elit yığması və «Synergy Baku»nun üzvü Maksim Averin də yarışda iştirak edib.




İsmayıl İlyasov, Markus Eybeger, Yannis Tamuridis və Dennis van Vindenin uğurlu komanda işinin nəticəsi olaraq M.Averin finişə yaxın ərazidə sprint mövqeyinə çıxıb və yürüşü 3 saat 25 dəqiqə 59 saniyəyə başa vuran pelotonun içərisində olub. Fotofinişə əsasən, velosipedçimiz 3-cü yeri tutub. Bu isə ona «Rio-2016» Yay Olimpiya Oyunlarına daha 16 lisenziya xalı qazanmağa imkan verib.

Xatırladaq ki, Maksim Averin bunadək «İzola» Qran-Prisində 5-ci olmaqla 10, «Umag Trophy» yürüşündə isə 2-ci olmaqla 30 lisenziya xalı qazanmışdı. Yığma komandamızın üzvü növbəti lisenziya xallarını martın 12-də Xorvatiyada start götürəcək 2.2 kateqoriyalı 4 günlük «Istrian Spring Trophy» yürüşündə qazanmağa çalışacaq.

# Qadın güləşçilərimiz Dünya kuboku yarışlarında beşinci oldu

*Rusiyanın Sankt-Peterburq şəhərində qadın güləşi üzrə Dünya kuboku yarışları başa çatıb. Yarışda Azərbaycanla yanaşı, Yaponiya, Polşa, ABŞ, Rusiya, Ukrayna, Monqolustan və İsveç güləşçiləri də iştirak ediblər.*



Püşkatmanın nəticəsinə əsasən, Azərbaycan güləşçiləri Yaponiya, Polşa və ABŞ komandaları ilə «A» qrupunda mübarizə aparıb. «B» qrupunda isə Rusiya, Ukrayna, Monqolustan və İsveç komandaları qüvvələrini sınayıblar. Qrupun ilk görüşündə ABŞ komandası ilə 4:4 hesablı bərabərlik qeydə alınsa da, texniki göstəricilərə görə rəqibdən geri qalan yığmamız görüşü məğlub başa vurub. Qadın güləşçilərimiz ikinci görüşdə Polşa güləşçilərinə 5:3 hesabı ilə qalib gəliblər. Qrupun son görüşünü güclü Yaponiya yığmasına qarşı keçirən komandamız 3:5 hesablı məğlubiyyətlə barışmalı olub. Görüşlərin nəticəsinə əsasən, komandamız mübarizə apardığı «A» qrupunu 3-cü yerdə tamamlayıb.

Qrup mərhələsində yığma komandamızın üzvlərindən ən yaxşı göstərici Mariya Stadnikə məxsusdur. Komandamızın kapitanı keçirdiyi hər 3 görüşü qələbə ilə başa vurub. Yuliya Ratkeviç və İrina Netreba isə 3 görüşdən ikisində qələbə qazanıb.

Beləliklə, qrup görüşlərinin nəticələrinə görə, yığma komandamız digər qrupu 3-cü yerdə tamamlayan Ukrayna güləşçiləri ilə 5-ci yer uğrunda qarşılaşıb. Ümumi hesab 4:4 tamamlansa da, texniki göstəricilərə görə rəqibindən üstün olan yığma komandamız Dünya kuboku yarışlarını 5-ci sırada tamamlayıb. Bu, qadın güləşi üzrə yığma komandamızın Dünya kuboku yarışlarında ən yaxşı nəticəsidir.

# Dünya reytinqli yarışda ilk medal

*26 fevral - 1 mart tarixlərində Türkiyənin Antalya və Alanya şəhərlərində səmti müəyyənetmə idman növü üzrə keçirilən dünya reytinqli yarışa (WRE) yekun vurulmuşdur.*

Yarışa Azərbaycan klublarından ümumilikdə 11 idmançı qatılmışdır. Yarışda Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşı, Bakı Azimutu klubunun üzvü Xəyyam Məmmədov dörd mərhələnin cəmi üzrə üçüncü yeri tutaraq yarışın bürünc medalına sahib olmuşdur. Beləliklə, ilk dəfə olaraq səmti müəyyənetmə idman növü üzrə beynəlxalq statuslu yarışda Azərbaycan idmançısı medal qazanmışdır.

Məlumat üçün qeyd edək ki, hər il Türkiyədə təşkil olunan WRE statuslu «Antalya O Days» turnirinə ölkəmiz ilə yanaşı İsveç, Finlandiya, Danimarka, Norveç, İsveçrə, Rumıniya, Rusiya, Belarus, Qazaxıstan kimi ölkələr də qatılmışlar. Ümumilikdə 2000-dən çox idmançı 12-dən çox kateqoriya üzrə keçirilən yarışda qüvvələrini sınamışlar.

mozaika

texnologiya

# Yeni texnologiyaların izində...




Facebook sosial şəbəkəsinin qurucusu Mark Zukerberq 2013-cü ilin avqustunda Internet.org layihəsini elan edib. Bu, texnologiya sahəsinin liderləri, qeyri-kommersiya təşkilatları, yerli cəmiyyətlər və ekspertlər arasında qlobal əməkdaşlıqdır. Onlar dünya əhalisinin üçdə iki hissəsinin internetə çıxışını təmin etmək üçün səylərini birləşdirirlər. Müxtəlif resurslar, qabaqcıl təcrübə və alətlərlə mübadilə edən Internet.org proqramının tərəfdaşları 3 əsas inkişaf sahəsi üçün həll axtarırlar: əlçatanlıq, səmərəlilik, biznes modelləri.

2014-cü ilin oktyabrında Internet.org layihəsi İndoneziyada işə salınıb.

2015-ci ilin yanvarında Facebook Internet.org proqramını Kolumbiya, bir ay sonra Hindistanda işə salıb.

Mark Zukerberq Barselonada keçirilən Mobile World Congress mobil texnologiyalar sərgisində çıxışının çox hissəsini üçüncü dünya ölkələrinin əhalisini internetlə təmin etməyi hədəfləyən Internet.org layihəsinin müzakirəsinə həsr edib. O, layihə çərçivəsində pilotsuz uçuş aparatları və başqa həllərin olacağını bildirərək qeyd edib ki, hazırda malik olduğumuz texnologiyaların bəziləri az səmərəlidir. «Bizim peyk və başqa istiqamətlər üzərində işləməyimiz bu texnologiyaların planetin bütün sakinlərini internetlə təmin etmək məsələsinin öhdəsindən gələcəyi demək deyil. 5-10 il sonra bu sahədə çoxlu innovasiya olacaq».

Bu istiqamətdə Google şirkətilə əməkdaşlıq etməklə bağlı Zukerberqə sual verdikdə o, belə cavab verib: Əlbəttə.

şad xəbər

# Təqaüdlər bayrama qədər veriləcək

*Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu qarşıdan gələn Novruz bayramı ilə əlaqədar bu ilin mart ayı üzrə əmək pensiyalarının vaxtından əvvəl maliyyələşdirilməsinə başlayıb.*

Fondun mərkəzi xəzinə hesabından pensiyaların maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin yerli orqanların hesablarına köçürülməsi davam etdirilir. Mart ayının birinci yarısına qədər bu proses bütün ölkə üzrə tam yekunlaşacaq və pensiyaların qrafikdə nəzərdə tutulduğu müddətdən əvvəl vətəndaşların şəxsi hesablarına köçürülməsi təmin olunacaq.

Hazırda Azərbaycanda əmək pensiyası alan şəxslərin sayı 1.290.882 nəfər təşkil edir. Onların 60,8%-ni yaşa görə, 28,3%-ni əlilliyə görə, 10,9%-ni isə ailə başçısını itirməyə görə əmək pensiyası alanlar təşkil edir.





sağlam həyat tərzi



## Kəklikotu

**Sinir sisteminə müsbət təsir edir:**
- beyində qan dövranını və mübadilə proseslərini tənzimləyir;
- əsəbiliyi aradan qaldırır, əhval-ruhiyyəni yaxşılaşdırır;
- baş ağrıları zamanı kömək edir;
- xroniki yorğunluğa qarşı faydalıdır;
- yuxunu bərpa edir;
- yaddaşı gücləndirir.

Azərbaycan mətbəxində daha geniş istifadə edilən kəklikotu həm də öz müalicəvi əhəmiyyətinə görə əvəzsizdir.

♦ ***İmmun sistemi üçün xeyirlidir.*** Kəklikotu çayı soyuqdəymə xəstəliklərinin profilaktikası məqsədi ilə istifadə olunur. Kəklikotu çayı hazırlamaq üçün 1 çay qaşığı quru kəklikotu 1 stəkan qaynar suda 20 dəqiqə ərzində dəmlənilir, süzülür və adi çay kimi içilir. Çaya bal, limon əlavə etmək olar.

♦ ***Təsirli spazmolitik vasitədir.*** Kəklikotunun köməyi ilə spazmla (sıxılma) bağlı ağrıları (baş ağrısı, bağırsaq spazmı və s.) azaltmaq və ya tam yox etmək mümkündür.

♦ ***Güclü antiseptik və antibakterial təsirinə malikdir.*** Bu səbəbdən kəklikotu dəmləmələri ağız boşluğu iltihabları, tonzillit zamanı qarqara üçün istifadə olunur. 1 xörək qaşığı kəklikotu 1 stəkan qaynar suda dəmlənilir, 20 dəqiqədən sonra süzülür və hər 2 saatdan bir qarqara üçün istifadə olunur.

♦ ***Bəlğəmgətiricidir.*** Kəklikotu respirator xəstəliklər (öskürək, bronxit və s.) zamanı nəfəs yollarında yığılan bəlğəmi durulaşdırır və onun çıxmasını asanlaşdırır.

Antiseptik xüsusiyyətlərə malik kəklikotu bağırsaqlardakı ziyanlı mikroorqanizmləri yox edir. Həmçinin sistit, nefrit zamanı antiseptik və iltihab əleyhinə təsiri var, təbii sidikqovucu vasitə kimi istifadə olunur. Prostatitin müalicəsinə müsbət təsir göstərir.

♦ ***Yaranı sağaldır.*** Yanıq, xora, donvurma zamanı kəklikotu yağı müalicəvi təsir edir. Ekzema, psoriaz kimi dəri xəstəlikləri zamanı kəklikotu ilə müalicəvi vannalar çox yaxşı effekt verir. Bunun üçün 100 qr kəklikotu 1 litr qaynar suda dəmlənilir, 30 dəqiqədən sonra süzülür və ılıq vannaya əlavə olunur.

Bütün müsbət təsirləri ilə yanaşı, kəklikotundan müntəzəm istifadə etmək üçün həkimə müraciət etmək məsləhət görülür.

araşdırma

# Uşaqlar və reklam

*Dünya Səhiyyə Təşkilatının (DST) Avropa regional bürosu uşaqlar üçün zərərli ərzaq məhsullarının, xüsusilə tərkibində yüksək miqdarda yağ, şəkər və duz olan məhsulların aqressiv reklamlarını məhdudlaşdırmağı təklif edir. Belə reklamlar uşaqların yemək istəklərinə və valideynlərin seçiminə mənfi təsir göstərir.*

Hazırda DST-nin Avropa regionu ölkələrində 13 yaşlı uşaqların 27 faizində, 11 yaşlı uşaqların 33 faizində piylənmə müşahidə olunur. Artıq çəki isə bir çox qeyri-yoluxucu xəstəliklərə səbəb olur.

DST-nin Avropa regional bürosu qida məhsullarının təsnifat modelini hazırlayıb. Bir çox ölkələr ərzaq məhsullarının dəyərini və tərkibini müəyyən etmək üçün bu modeldən istifadə edə bilərlər. Ən yaxşısı Danimarka və Norveç modelləridir ki, bunlardan qida reklamını məhdudlaşdırmaq üçün istifadə olunur.

DST-nin ekspertləri sübut edirlər ki, bol enerjili, yağ, şəkər və duzla zəngin qidaların reklamı uşaqlara mənfi təsir göstərir, onlarda qida ilə bağlı zərərli vərdişlər formalaşdırır, o cümlədən piylənmə yaradır.

«Avropada uşaq piylənməsi epidemiyası davam edir, buna görə də dəyəri az olan və zərərli ərzaq məhsulları marketinqinə heç nə ilə haqq qazandırmaq olmaz. Biz uşaqları ərzaq marketinqinin zərərli təsirlərindən qorumaq üçün ölkələrə xüsusi vasitələr təklif edirik», - DST Avropa regional bürosunun qeyri-yoluxucu xəstəliklər şöbəsinin direktoru Qayden Qalea bildirib.

## Müdriklər deyib ki...

***«Ən iyrənc cinayət – dostunun sənə olan etimadından sui-istifadə etməkdir».***

**Henrix İbsen (1828-1906)**

